QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 057 (5777) **2 aprel** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**

# "Azərbaycan və çeçen xalqları arasında dostluq və qardaşlıq əlaqələrinin dərin tarixi kökləri var"

*Prezident İlham Əliyev Rusiyanın Çeçenistan Respublikası başçısının müşavirini qəbul edib*



Səh 2

4

Dörd günlük müharibə - Azərbaycanın qürur tarixi



7

KİVDF-nin Müşahidə Şurası 25 ictimai-siyasi qəzetə maliyyə yardımı ayırıb



7

Ermənistanda incəsənət xadimləri Paşinyan hökumətinə qarşı ayağa qalxdı!



# “Azərbaycan və çeçen xalqları arasında dostluq və qardaşlıq əlaqələrinin dərin tarixi kökləri var”

*Prezident İlham Əliyev Rusiyanın Çeçenistan Respublikası başçısının müşavirini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Rusiya Federasiyası Çeçenistan Respublikası başçısının müşaviri, Rusiya Dövlət Dumasının deputatı Adam Delimxanovu qəbul edib.***

AZƏRTAC xəbər verir ki, Adam Delimxanov Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun salamlarını dövlətimizin başçısına çatdırdı və bildirdi ki, Ramzan Kadırov Prezident İlham Əliyevi özünə qardaş hesab edir. Çeçen xalqının Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevi heç vaxt unutmayacağını vurğulayan Adam Delimxanov ən çətin vaxtlarda Heydər Əliyevin onlara göstərdiyi qayğı və dəstəyi böyük ehtiramla xatırladı. O, xalqlarımız arasında sarsılmaz dostluq və qardaşlıq münasibətlərinin mövcud olduğunu dedi.

Prezident İlham Əliyev Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Ramzan Kadırova çatdırmağı xahiş etdi və qeyd etdi ki, onu Ramzan Kadırovla qardaşlıq əlaqələri bağlayır. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan və çeçen xalqları arasında dostluq və qardaşlıq əlaqələrinin dərin tarixi kökləri var və tarix boyu bu əlaqələr daim möhkəmlənib.

Prezident İlham Əliyev Ramzan Kadırovun bu yaxınlarda ölkəmizə səfərini məmnunluqla xatırlayaraq Ramzan Kadırovun çeçen xalqının lideri Hacı Əhməd Kadırovun siyasətini uğurla davam etdirdiyini, Çeçenistanda sabitliyin və əmin-amanlığın bərqərar olduğunu, genişmiqyaslı quruculuq işlərinin həyata keçirildiyini qeyd etdi.

Söhbət zamanı Azərbaycan ilə Çeçenistan Respublikası arasında əlaqələrin Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin daha da inkişafı baxımından əhəmiyyəti vurğulandı.

## Professor Aygün Əttar: “Ermənistan müdafiə nazirinin fikirləri beynəlxalq hüquqa həqarətdir”

***Ermənistanın müdafiə naziri D.Tonoyanın Nyu-Yorkda erməni icması ilə görüş zamanı “sülh naminə ərazi” formulasının əvəzinə “yeni ərazilər üçün yeni müharibə” fikrini səsləndirməsi beynəlxalq hüquqa qarşı həqarətdir. Bu çıxış təcavüzkar Ermənistanın işğalçılıq siyasətinin və bəd niyyətinin nümayişidir. Sülhsevər dünya ictimaiyyəti bundan artıq daha hansı hədəni eşitməlidir ki, nəhayət hərəkətə gəlsin?***



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyədə yaşayan azərbaycanlı professor Aygün Əttar deyib. O bildirib ki, Ermənistanın baş nazirinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlarda iştirak etdiyi bir vaxtda ölkənin müdafiə nazirinin belə ifadələr səsləndirməsi regionda baş verə biləcək xoşagəlməz hadisələrə görə məsuliyyəti bu dövlətin üzərinə qoyur. Dövlətlər arasında qarşılıqlı münasibətlərin əsasını beynəlxalq hüquq, humanizm prinsipləri və sağlam niyyətlər təşkil etməlidir. Bu amillər səmərəli nəticəyə gətirib çıxarır. Dünya ictimaiyyəti bilməlidir ki, Ermənistandakı sosial problemlərin səbəbkarları D.Tonoyan və zaman-zaman onun kimi sərsəm, məsuliyyətsiz, dövlət və hökumət adamına yaraşmayan fikirlər söyləyən şəxslərdir.

## Azərbaycanın Avstriyada yeni təyin edilmiş fəxri konsulu Xarici İşlər Nazirliyində olub

***Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizin Avstriyaya yeni təyin edilmiş fəxri konsulu Mixael Haynrits ilə görüşüb.***



AZƏRTAC xəbər verir ki, Elmar Məmmədyarov Mixael Haynritsi Avstriyanın Zalsburq, Tirol və Forarlberq federal vilayətlərini əhatə etməklə Zalsburq şəhərində Azərbaycanın fəxri konsulu qismində fəaliyyətə başlaması münasibətilə təbrik edib. Azərbaycan Prezidenti İlham Əliyevin Avstriyaya son işgüzar səfərinə toxunan nazir səfər çərçivəsində çox faydalı görüşlərin keçirildiyini diqqətə çatdırıb.

Azərbaycanı təmsil etməkdən məmnun olduğunu bildirən M.Haynrits Azərbaycan və Avstriya arasında iqtisadi-ticarət əlaqələrinin daha da genişləndirilməsi məqsədilə, xüsusilə də qeyri-neft sektorunda əməkdaşlığın təşviq edilməsi istiqamətində davamlı fəaliyyət göstərəcəyini diqqətə çatdırıb. Fəxri konsul fəaliyyəti dövründə iki ölkə arasında hərtərəfli əməkdaşlığın inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirib.

## Rəsmi xronika

Prezident İlham Əliyev İmişli rayonunun Bəhrəmtəpə-Göbəktala-Məhəmmədli-İmişli-Cəfərli-Oruclu-Ağaməmmədli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1528-VQD nömrəli Qanununun tətbiqi və “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 366 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev “Patent haqqında”, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” və “İxrac nəzarəti haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1475-VQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Patent haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 1998-ci il 19 avqust tarixli 755 nömrəli, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 1998-ci il 19 avqust tarixli 749 nömrəli və “İxrac nəzarəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2004-cü il 29 dekabr tarixli 167 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Soltan Hacıbəyovun 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, 2019-cu ilin may ayında görkəmli Azərbaycan bəstəkarı, tanınmış pedaqoq, dirijor və musiqi xadimi, SSRİ Xalq artisti, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, professor Soltan İsmayıl oğlu Hacıbəyovun anadan olmasının 100 illiyi tamam olur.

Soltan Hacıbəyov xalq sənəti xəzinəsindən və dünya musiqi təcrübəsindən faydalanaraq müxtəlif janrlarda özünəməxsus üslubda epik vüsəti, dərin lirizmi və dolğun məzmunu ilə səciyyələnən qiymətli əsərlər yaratmışdır. Azərbaycan simfonik musiqisinin təşəkkülü və inkişafında onun mühüm xidmətləri vardır. Geniş diapazonlu yaradıcılığa malik bəstəkar simfoniya, simfonik lövhə və süitaları, həmçinin opera və balet, dram tamaşalarına musiqi, mahnı və romansları ilə Azərbaycanın mədəniyyət xəzinəsini daha da zənginləşdirmişdir. Soltan Hacıbəyov respublikanın mədəni və ictimai həyatında daim yaxından iştirak etmiş, pedaqoq kimi gənc kadrların hazırlanması istiqamətində uzun illər səmərəli fəaliyyət göstərmişdir.

Mədəniyyət Nazirliyinə tapşırılır ki, Azərbaycan Bəstəkarlar İttifaqının təkliflərini nəzərə almaqla, SSRİ Xalq artisti Soltan Hacıbəyovun 100 illik yubileyinə həsr edilmiş tədbirlər planını hazırlayıb həyata keçirsin. Nazirlər Kabineti Sərəncamdan irəli gələn məsələləri həll edəcək.



***Ermənistanda baş verən hakimiyyət dəyişikliyindən sonra, ilk dəfə olaraq, iki dövlət rəhbərinin arasında Qarabağ probleminin həlli ilə bağlı danışıqların baş tutmasının özü artıq Azərbaycanın diplomatik qələbəsidir. Nikol Paşinyanın, nizamlama prosesinin formatı dəyişdirilməli, danışıqlar Bakı ilə Xankəndinin arasında getməlidir, iddiasının tamamilə gündəmdən yığışdırılması, Vynada danışıqların bu vaxta qədərki formatda aparılması ölkəmizin bu diplomatik qələbəsini isbatlayır.***

# Azərbaycanın diplomatik qələbəsi

Unutmaq lazım deyil ki, Paşinyan vaxtaşırı, "Məni Qarabağın əhalisi seçmədiyi üçün, onların adından danışa bilmərəm" tezisini ortaya atsa da, hər dəfə danışıqlarda iştirak edir və hətta yeni format icad etməyə də cəhd edir. Bu isə, onun dedikləri ilə birbaşa təzad təşkil edir. Çünki əgər erməni baş nazirini Qarabağın əhalisi seçməyibsə və onların adından danışa bilmirsə, niyə hər zaman yuyulmamış qaşıq kimi ortaya atılır? Niyə separatçılar tərəfindən işğal olunmuş torpaqların, Azərbaycana məxsus torpaqların Ermənistanın nəzarətində saxlanılması üçün erməni baş nazir dəridən-qabıqdan çıxır?

Digər tərəfdən, Paşinyandan soruşmaq yerinə düşərdi ki, əgər danışıqlarda Dağlıq Qarabağ tərəf kimi iştirak etməlidirsə, nə əcəb həmin torpaqlar bu vaxta qədər Ermənistanın nəzarəti altındadır, özü də qanunsuz şəkildə? Daha dəqiq desək, Dağlıq Qarabağ müstəqil qərar verməlidirsə, niyə Ermənistan tərəfi, hətta erməni cəmiyyətləri, lobbiləri, diasporları müdaxilələr edir? Təbii ki, Qarabağın müstəqil qərar verməsi, tərəf kimi iştirakı, erməni baş nazirinin "danışa bilmərəm" deməsi bəhanələrdir və danışıqların pozulmasına, yaxud ən azından, uzadılmasına hesablanıb.

## Beynəlxalq səviyyədə və beynəlxalq ictimaiyyətin gözü qarşısında

## Azərbaycanın diplomatik qələbəsi reallaşdırıldı

Azərbaycan tərəfi, hər zaman olduğu kimi, yenə də danışıqların aparılmasına, özü də əvvəlki formatda aparılmasına öz qətiyyətini göstərdi və qəti şəkildə bəyan etdi ki, danışıqların formatında dəyişiklik ola bilməz. Əgər Vyanda danışıqların formatında heç bir dəyişiklik olmadısa, ATƏT-in Minsk Qrupu həmsədrlərinin dediyi kimi, "heç bir format icad etməyə ehtiyac yoxdur" fikri öz təsdiqini tapdısa, bu, ölkəmizin diplomatik qələbəsini xarakterizə edir. Özü də beynəlxalq səviyyədə və beynəlxalq ictimaiyyətin gözü qarşısında bu diplomatik qələbə reallaşdırıldı.

Paşinyan bu vaxta qədər irəli sürdüyü bütün tezisləri, fikirləri, uydurmaları ayaq altına alaraq, əvvəlki formatı qəbul edərək geri çəkilməli oldu. Ermənistanın baş naziri Azərbaycan Prezidenti ilə bir masa arxasında rəsmi Bakının irəli sürdüyü şərtlərlə oturmaq məcburiyyətində qaldı. Danışıqların aparılması üçün yeni format icad etmək istəyən Paşinyanın, heç elə bil bu icadından xəbəri də yox idi və məğlubiyyəti ilə barışmalı olduğunu hamıdan yaxşı başa düşdüyü də göz qabağında idi. Məhz təkcə bu fakt özü-özlüyündə Azərbaycanın diplomatik qələbəsidir.

Ölkəmiz tərəfindən qeyd olunduğu kimi, görüşdən əvvəl iki şərt qoyulmuşdu və bu şərtlərin birincisi format dəyişikliyinin yolverilməzliyi, digəri isə danışıqların substantivliyi, yəni nəticəyə yönəldilmiş olması idi. Vyanadakı görüşdən sonra bəlli olur ki, əslində, Azərbaycan tərəfinin qoyduğu ikinci şərt də qəbul olunub. Yəni əgər format dəyişikliyi ləğv olunubsa və bu şərtlər daxilində, bu şərtləri qəbul edərək Ermənistanın baş naziri danışıqlarda iştirak edirsə, danışıqlar baş tutursa, deməli, artıq danışıqlar nəticəyə yönəldilmiş xarakter alır. Daha dəqiq desək, ikinci şərtə müvafiq olaraq substantiv xarakter daşımağa başlayır və ölkəmiz tərəfindən qoyulan ikinci şərt də təmin edilib. Sözsüz ki, bu, Azərbaycan tərəfinin, ölkə başçısının hər iki istiqamətdə əldə etdiyi diplomatik qələbəsi deməkdir.

## Danışıqlar prosesində artıq yeni mərhələ başlayıb və bu dəfə substantiv qaydada, münaqişənin həllinə yönəldilmiş istiqamətdədir

ATƏT-in Minsk Qrupunun həmsədrlərinin erməni baş nazirin format dəyişkənliyi cəhdinə qarşı çıxması və bunu təsdiq edən bəyanatı Paşinyanın aciz durumunu, məğlubiyyətini elə o zamandan da proqnozlaşdırırdı. Vyanadakı görüşdən qabaq ölkəmizin irəli sürdüyü hər iki tələbin, formatın dəyişdirilməməsi və danışıqların substantiv aparılması tələbinin qəbul edilməsi Azərbaycanın dəstəklənməsi və bir sözlə, əvvəlcədən qazanılmış qələbəsi idi.

Vyanda keçirilən görüşdə də ölkə başçımızın beynəlxalq hüquq normaları və beynəlxalq təşkilatların təsdiqlədiyi qətnamələrin tələbləri ilə çıxış etməsi Ermənistan silahlı qüvvələrinin işğal etdikləri ərazilərimizdən qeyd-şərtsiz çıxarılması və torpaqlarımızın azad edilməsi tələbidir. Sözsüz ki, bu tələblərdə ölkə başçısı haqlıdır və heç bir beynəlxalq təşkilat, heç bir qurum bu tələbə qarşı çıxa bilməz. Heç qarşı çıxmadı da. Yəni bir sözlə, bu, diplomatik qələbələrimiz sırasına daxildir və məntiqi olaraq, erməni tərəfinin, şübhəsiz, məğlubiyyətidir.

Görüşdən sonra dialoqun davam etdirilməsi barədə anlaşma və bu barədə nazirlərə yaxın gələcəkdə də həmsədrlərlə yenidən görüşmək üçün təlimat verilməsi heç də təsadüfi deyil. Bu sadalananlar ondan xəbər verir ki, danışıqlar prosesində artıq yeni mərhələ başlayıb və bu dəfə substantiv qaydada, münaqişənin həllinə yönəldilmiş istiqamətdədir. Bu isə, Azərbaycanın qeyd olunan uğurları içərisində ən böyük uğuru və ən böyük qələbəsidir.

**_İnam HACIYEV_**

# Dörd günlük müharibə - Azərbaycanın qürur tarixi

## İlham Əliyev: “Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir”

***Azərbaycan Ordusunun parlaq tarixi qələbələrindən olan şanlı aprel döyüşlərindən üç il ötür. 2016-cı il aprelin 2-də işğalçı Ermənistanın silahlı qüvvələrinin təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin, minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Azərbaycan Ordusu dördgünlük aprel döyüşləri ilə 24 ildən sonra xalqımıza qələbə sevinci yaşatdı.***



### Sarsılmaz ordumuz, məğlub düşmənimizdir

Bu sevinc, bu qələbə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin uğurlu və proqmativ siyasəti nəticəsində əldə olundu. Çünki güclü ordu ilə güclü dövlət anlayışı vəhdət təşkil edir. Çünki müstəqil dövlətin nüfuzu iqtisadi, siyasi, elmi potensialı ilə yanaşı, onun malik olduğu ordusunun qüdrəti ilə də ölçülür. Aprelin 2-dən başlayaraq, Ermənistanın hərbi hissələrinin təmas xəttində Azərbaycanın işğal altında olan ərazilərində yerləşən Azərbaycan Silahlı Qüvvələrinin bütün cəbhəboyu mövqelərini iriçaplı silahlar, minaatanlar, qumbaraatan və artilleriya qurğularından intensiv atəşə tutaraq, qoşunların təmas xəttində növbəti təxribatların uğurla qarşısının alınması, məhz müstəqil Azərbaycanın peşəkar hərbçi kadrlarının, güclü maddi-texniki bazaya, müasir texnika və silahlara malik olan nizami ordusunun olmasının nəticəsidir. Daha dəqiq desək, Azərbaycanın şanlı silahlı qüvvələrinin cəbhədə əldə etdiyi zəfərləridir. Əslində, bu, gözlənilən idi. Çünki uzun müddət idi ki, işğalçı Ermənistan rəhbərliyi, bu rejimin Qarabağdakı yedəyi özlərinə güvənən bəyanatlarla çıxış edir, “qüdrətli və məğlubedilməz erməni ordusu”nun imicini reklam etməklə, siyasətdəki yerlərini möhkəmləndirməyə çalışsalar da, yenə də Azərbaycan Ordusu onları zamanında yerlərinə oturtdu və dərslərini verdi.





Ordumuzun qəti zərbələri nəticəsində düşmənin 30-dək tankı, 25-dən çox artilleriya qurğusu və digər zirehli texnikası məhv edildi, 320 hərbçisi öldürüldü, 500-dən artıq döyüşçüsü yaralandı. Ağdərə-Madagiz istiqamətində yolların nəzarətdə saxlanılması təmin edildi.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub- saxlanması, erməni işğalçılarının 2016-cı il aprelin 2-dən 5-dək qoşunların təmas xəttində törətdikləri silahlı təxribatların qarşısının alınması və düşmənin dinc əhaliyə hücumlarının dəf edilməsi zamanı göstərdikləri qəhrəmanlıq və igidliyə görə Azərbaycan hərbçilərinin xüsusi fərqlənən bir qrupu 2016-cı il aprelin 19-da Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə yüksək fəxri ada layiq görülüb, orden və medallarla təltif edilib.

Aprel döyüşləri Azərbaycan xalqının və Ordusunun tarixi ərazilərimiz olan Dağlıq Qarabağ və ətraf rayonların işğaldan azad edilməsi üçün hər cür fədakarlığa və hərbi qüdrətə hazır olduğunu düşmənlə yanaşı, bütün dünyaya sübut etdi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan Ordusunun aprel qələbələrinin ildönümü ilə əlaqədar martın 31-də bir qrup hərbçimizlə görüşdə deyib: “Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər, onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü, nəyin bahasına olursa-olsun, bərpa edəcəkdir”.

Dövlətimizin başçısının dediyi kimi, aprel döyüşləri, eyni zamanda, ordumuzun peşəkarlığını göstərdi. Ordumuz əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı apararaq, strateji mövqelərə sahib oldu. Bu gün bu strateji yüksəkliklər, mövqelər, işğaldan azad edilmiş ərazilər, imkan verir ki, Azərbaycan Ordusu təmas xəttində mövcud vəziyyətə tam nəzarət etsin və lazımi tədbirləri görə bilsin.

Aprel döyüşlərinin ən böyük tarixi əhəmiyyəti bu qələbə sayəsində “Böyük Qayıdış” prosesinə start verilməsi oldu. Lələtəpə yüksəkliyinin azad edilməsi nəticəsində, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində mülki əhalinin yaşayışı üçün təhlükə tamamilə aradan qaldırıldı. Dövlətimizin başçısının Cocuq Mərcanlı kəndinin bərpası və əhalinin yerləşdirilməsi ilə bağlı 2017-ci il 24 yanvar tarixli Sərəncamı ilə “Böyük Qayıdış” prosesinə start verildi. Artıq bu kəndin əhalisinin 24 illik fasilədən sonra doğma torpaqlarına qayıtması işğal altındakı digər ərazilərimizin də tezliklə azad olunmasına bütün xalqımızda dərin inam yaratdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci Xanım Mehriban Əliyevanın təmas xəttinə gedərək, Ermənistan ordusunun təxribatı nəticəsində yaşayış məntəqələrimizə dəyən ziyanla yerində tanış olmaları, yerli əhali, eləcə də, ön xətdə şəxsi heyətlə görüşü xalqımızın və ordumuzun düşmən üzərində qəti qələbəyə ümidlərini daha da artırdı.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev aprel döyüşlərinin əhəmiyyəti barədə dediyi sözlər bu qələbənin ordumuz və xalqımız üçün önəmini açıq şəkildə ifadə edir: “Aprel döyüşləri hərbi dərsliklərə salınmalıdır. Həm peşəkarlıq, həm də vətənpərvərlik ruhu baxımından, aprel döyüşləri, bir daha göstərdi ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Bir daha, onu göstərdi ki, biz bu vəziyyətlə barışmayacağıq. Onu göstərdi ki, xalq-iqtidar birliyi bu gün Azərbaycanda yüksək səviyyədə təmin olunur, möhkəmlənir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün, həmişə olduğu kimi, birinci yerdə duran prioritet məsələdir”.

### Ali Baş Komandandan sərt bəyanat!

Bəli! Həmişə olduğu kimi, bu dəfə də hadisələrlə bağlı Ali Baş Komandan, ölkə Prezidenti daima təxribatlar törədən Ermənistan, məhz bu təxribatda Azərbaycana qarşı məkrli siyasət yürütdüyünü bildirdi: “Aparılan hərbi əməliyyat nəticəsində, - onu da qeyd etmək istəyirəm ki, bu əməliyyat təxribata cavab olaraq aparılmışdır, - biz böyük hərbi qələbə qazandıq. Bu münasibətlə Ordumuzu, bütün Azərbaycan xalqını təbrik etmək istəyirəm. Əminəm ki, bundan sonra da düşmənin bütün təxribatları cavabsız qalmayacaq. Düşmənə bundan sonra da layiqli cavab veriləcək. Azərbaycan Ordusu buna qadirdir”.

Ölkə Prezidenti, həmçinin, onu da bildirdi ki, Ermənistan nə qədər ki, təxribatçı əməllərə əl atacaqsa, Azərbaycan Ordusu onları bundan sonra da cəzalandıracaq: “Nə qədər ki, Ermənistan bu təxribatçı əməllərdən əl çəkməyəcək, Azərbaycan Ordusu onları bundan sonra da cəzalandıracaq”.

“Əgər erməni əsgəri ölmək istəmirsə, Azərbaycan torpağından rədd olsun”-deyən dövlət başçısı bildirdi ki, bizə qarşı yenə təxribat törədilərsə, onlar yenə də öz cəzalarını alacaqlar.

Göründüyü kimi, Ermənistan dörd günlük müharibədə bütün dünyaya rəzil oldu və bir daha anladı ki, Azərbaycan dövləti sülh yolu ilə mümkün olmasa, hərbi yolla öz torpaqlarını, hüququ torpaqlarını, Qarabağımızı işğaldan azad edəcək. Azərbaycanın gücü, ordumuzun qüdrəti buna çatır. O gün isə uzaqda deyil.

**RƏFİQƏ KAMALQIZI**

# Azərbaycanda həyata keçirilən islahatlar uğurlu nəticələr verməkdədir

## Milli Məclisin deputatı Azər Badamovun yap.org.az-a müsahibəsi



***- Azər müəllim, 2019-cu ilin əvvəlindən başlayaraq ölkəmizdə geniş islahatlar həyata keçirilir və vətəndaşların sosial rifahının yüksəldilməsi istiqamətində mühüm addımlar atılır. Ümumiyyətlə, aparılan işlər, atılan addımlarla bağlı fikirlərinizi bilmək maraqlı olardı...***

- Əsası Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulan və Prezidenti İlham Əliyev tərəfindən uğurla və yeni dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirilən dövlət siyasəti nəticəsində Azərbaycan dünyaya yeni və nümunəvi inkişaf modeli təqdim edir. Bu inkişaf modelinin əsas komponentlərindən biri isə təbii ki, konkret hədəflərə və məqsədlərə hesablanan, sosial inkişafı özündə ehtiva edən islahatlardır. Son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasi kurs bir daha sübut etdi ki, ölkəmizdə islahatlar davamlı xarakter daşıyır. 2019-cu ilin əvvəlindən başlayaraq isə respublikamızda islahatların əhatə dairəsi daha da genişləndirilib. Təbii ki, görülən işlər, aparılan siyasət göz önündədir. Bu gün istər orta aylıq əmək haqqının yüksəldilməsi, digər sosial müavinətlərin artırılması, qayğıya ehtiyacı olan vətəndaşların problemlərinin həlli istiqamətində atılan addımlar öz real nəticələrini verir və bu, vətəndaşlarımızın sosial rifahının daha da yüksəlməsinə xidmət göstərir. Cənab Prezidentin də qeyd etdiyi kimi, Azərbaycan islahatların yeni mərhələsinə qədəm qoyub. Və bu islahatlar uğurlu nəticələr verməkdədir.

***- Yeni islahatlar ölkə iqtisadiyyatının daha yüksək səviyyədə inkişaf etməsinə hansı töhfələri verəcək?***

- Azərbaycanda illərdir sistemili şəkildə görülən işlər və aparılan siyasət milli iqtisadiyyatımızın yüksəlişini təmin edib. Xatırlayırıq ki, hələ qlobal maliyyə böhranı dövründə Azərbaycan iqtisadiyyatı öz sabitliyi ilə seçildi və həmin prosesdən demək olar ki, zərər çəkməyən azsaylı dövlətlərdən olduq. Bunun arxasında isə illərdir düzgün istiqamətlənən dövlət siyasəti dayanırdı. Bu gün respublikamız rəqabət qabiliyyəti kifayət qədər yüksək olan iqtisadiyyata malikdir və heç bir kənar maliyyə mənbəyindən asılı deyil. Azərbaycan hətta ölkə xaricində də nəhəng investisiya layihələri həyata keçirir. Bütövlükdə, son 15 ildə həyata keçirilən müxtəlif təşviq tədbirləri, islahatlar və maliyyə təminatının gücləndirilməsi sayəsində milli iqtisadiyyatımız 3,3 dəfədən çox genişlənib. O cümlədən cari ilin ilk iki ayında ölkə üzrə ümumi daxili məhsul 3 faiz artıb. Qeyd edək ki, bu, son illərin ən yüksək göstəricisidir. Daha böyük artım isə 15,5 faiz olmaqla qeyri-neft sənayesində qeydə alınıb ki, bu, dünya rekordudur. Sevindirici haldır ki, artıq ildən-ilə ölkəmizin gəlirlərindən qeyri-neft sektorunun payı artmaqdadır.

Təbii ki, burada regionların sosial-iqtisadi inkişafına dair müvafiq Dövlət proqramlarının rolunu xüsusi qeyd etmək lazımdır. Prezident İlham Əliyevin bu ilin yanvarın 29-da imzaladığı "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Fərmanda da qeyd edildiyi kimi, Azərbaycan Respublikası regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların sosial-iqtisadi inkişafına dair müvafiq Dövlət proqramlarının icra olunduğu 2004-2018-ci illər ərzində ümumi daxili məhsul qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artıb. Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılıb, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə endirilib.

2019-cu ilin əvvəlindən intensiv şəkildə reallaşdırılan geniş sosial paket çərçivəsində problemli kreditlərlə bağlı mühüm qərar verilməsi də xüsusi vurğulanmalıdır. Prezident İlham Əliyevin 2019-cu ilin fevralın 28-də imzaladığı "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanın sosial əhəmiyyəti kifayət qədər yüksəkdir. Dövlət başçısının imzaladığı Fərmana əsasən, devalvasiya nəticəsində insanlara dəyən ziyan dövlət tərfindən ödənilir. Bu, bir daha dövlətin öz vətəndaşına göstərdiyi qayğının göstəricisidir.

***-Azər müəllim, son günlərdə əsas müzakirə mövzularından biri "Diqlas" ticarət mərkəzində baş vermiş yanğında zərərçəkmiş insanlara dövlətimizin qayğısı, Azərbaycan Prezidentinin həmin insanların zərərlərinin ödənilməsi ilə bağlı müvafiq tapşırığıdır. Bu barədə nə deyə bilərsiniz?***

- Prezident İlham Əliyevin göstərişi ilə "Diqlas" ticarət mərkəzində baş verən yanğından zərər çəkən vətəndaşlara kompensasiya ödənilməsi ilə bağlı tapşırığın verilməsini, bununla əlaqədar xüsusi müşavirənin keçirilməsini və müvafiq sərəncamın imzalanması çox yüksək dəyərləndirirəm. Cənab Prezdent İlham Əliyev bir daha ümidsiz insanlara ümid verdi. Ölkə başçısı keçirdiyi müşavirədə tezliklə yanğının səbəblərinin araşdırılmasına, sahibkarlara dəymiş ziyanın müəyyənləşdirilməsinə və müəyyən olunacaq maliyyənin ödənilməsinə dövlət büdcəsindən vəsait ayrılmasına tapşırıq verib. Bu, bir daha cənab Prezidentin siyasətinin təməlində vətəndaşın dayandığını göstərir. Azərbaycan vətəndaşı əmindir ki, ən ağır durumunda belə dövləti, Prezidenti onun arxasındadır. Təbii ki, bu da ölkəmizdə yaradılan dövlət-xalq birliyinin təcəssümüdür. Cənab Prezidentimiz hər zaman vurğulayır ki, Azərbaycan sosial dövlətdir. Bunun anlamı isə ilk növbədə vətəndaşlarımızın sosial problemlərinin təmin edilməsini özündə ehtiva edir. Bu gün aparılan islahatlar, atılan addımlar, qəbul edilən Dövlət proqramları da bu dediklərimizin əyani sübutudur.

# Küveyt qəzetlərində Azərbaycanlıların Soyqırımı Günündən bəhs edən məqalələr dərc olunub

***Küveytdə gündəlik ərəb dilində nəşr edilən "Əl-Nahar" qəzetinin 31 mart tarixli nömrəsində "Azərbaycanın Küveytdəki səfirliyi azərbaycanlıların ermənilər tərəfindən törədilmiş soyqırımının il dönümünü qeyd edir", "Əl-Vasat" qəzetinin 31 mart tarixli buraxılışında "Azərbaycan səfirliyi soyqırımının ildönümünü qeyd edir.... dəhşətli faciə və ağrılı mərhələ" sərlövhəli məqalələr və eyni zamanda, Küveytin "Dasmannews" elektron qəzetinin 31 mart tarixli buraxılışında 31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar olaraq səfirliyin pres-relizi dərc edilib.***

Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, məlumatlarda ermənilər tərəfindən 1918-ci il mart-aprel aylarında azərbaycanlılara qarşı soyqırımı törədildiyi, Azərbaycan xalqının məruz qaldığı qanlı faciələr sırasında bu soyqırımın özünün ağır və dəhşətli nəticələri ilə seçildiyi, Azərbaycanda hər il martın 31-nin Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunduğu bildirilir. Erməni millətçilərinin və onların havadarlarının azərbaycanlılara qarşı iki əsrdən artıq müddətdə məqsədyönlü şəkildə həyata keçirdikləri soyqırımı, etnik təmizləmə və deportasiya siyasətinin azərbaycanlıların öz tarixi torpaqlarından didərgin salmaq və bu ərazilərdə mifik "Böyük Ermənistan" dövlətinin yaratmaq məqsədini güddüyü, XIX əsrin əvvəllərindən başlayaraq, tarixi Azərbaycan torpaqları olan Qarabağa, Naxçıvana, Zəngəzura, İrəvan quberniyasına və digər bölgələrə İran və Türkiyədən minlərlə erməni ailəsinin köçürüldüyü, Gülüstan və Türkmənçay müqavilələrinin Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarının bölünməsinin əsasını qoyduğu bildirilir. Azərbaycan xalqının həmin milli faciəsinin davamı kimi onun torpaqlarının zəbt olunmasına başlanıldığı, qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək çar Rusiyasının himayəsi ilə ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsinin həyata keçirildiyi, əhalinin fiziki cəhətdən məhv edilməsinin Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildiyi, XX əsrin əvvəllərində "Daşnaksütyun" kimi erməni millətçi partiyasının və erməni milli konqresinin fəaliyyətindən və fanatik kütləleri qatı millətçi ideyalar ətrafında birləşdirməsindən sonra bu prosesin daha da sürətləndiyi diqqətə çatdırılır.

Yazılarda, həmçinin 1918-ci ilin martından etibarən Qafqazın Fövqəladə Komissarı Stepan Şaumyanın rəhbərliyi ilə, erməni qəsbkarlarının azərbaycanlılara qarşı həyata keçirdikləri Bakıdan başlanan və bütün Azərbaycanı, habelə indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə edən genişmiqyaslı qanlı aksiyalar nəticəsində yüzlərlə yaşayış məntəqəsinin yerlə-yeksan edildiyi, minlərlə azərbaycanlının vəhşicəsinə qətlə yetirildiyi bildirilir. Martın 30-da erməni-bolşevik birləşmələrinin Bakı şəhərini gəmilərdən atəşə tutduqları, sonra silahlı erməni daşnakların azərbaycanlıların evlərinə basqın edərək onlara qarşı etnik mənsubiyyətlərinə görə amansız qətliam həyata keçirdikləri, bu dövr ərzində erməni-daşnak birləşmələrinin Bakı şəhərində və ətrafında 30.000-dən artıq günahsız insanı qətlə yetirdikləri, azərbaycanlılara qarşı törədilən soyqırımın Bakı ilə məhdudlaşmadığı, qısa zaman ərzində ermənilərin Quba, Şamaxı, İrəvan, Zəngəzur, Qarabağ, Naxçıvan və Qarsda da qırğınlar törətdikləri, 1918-ci ilin ilk beş ayı ərzində təkcə Qubada xüsusi vəhşiliklə 16.000-dən çox insanın öldürüldüyü, Quba rayonu ərazisində aşkar olunmuş kütləvi məzarlığın ermənilərin törətdiyi qeyri-insani əməllərin əyani sübutu olduğu, 1918-ci il mart qırğınlarının azərbaycanlılara qarşı irqi ayrı-seçkilik və etnik təmizləmə siyasəti əsasında əvvəlcədən hazırlanmış və qəddarcasına həyata keçirilən siyasət olduğu qeyd edilir.

Eyni zamanda, 1917-1918-ci illərdə ermənilərin öz iddialarını həyata keçirmək məqsədilə minlərlə azərbaycanlını qətlə yetirdikləri, tarixi abidələri, məscidləri, məktəbləri və xəstəxanaları yandırdıqları qeyd edilib. Yalnız Qarabağda 150-dən çox, Zəngəzur qəzasında 109, İrəvan quberniyasında 197 Azərbaycan kəndinin dağıdıldığı və talan edildiyi, Zəngəzur qəzasında 10 mindən çox, Şamaxı rayonunda isə 18 mindən çox azərbaycanlının qətlə yetirildiyi qeyd olunur.




Həmçinin ermənilər tərəfindən 1905-1906-cı illərdə də Azərbaycanın 200 mindən çox dinc əhalisinin qətlə yetirildiyi, Bakı, Gəncə, Qarabağ, İrəvan, Naxçıvan, Ordubad, Şərur, Şuşa, Cəbrayıl və digər şəhərlərdə yaşayan soydaşlarımız amansızcasına öldürülərək, şəhər, kənd və küçələrinin dağıdılıb və yandırıldığı, 200-dən çox yaşayış məntəqəsinin məhv edildiyi, on minlərlə soydaşımızın öz doğma yurdlarından didərgin düşdüyü, azərbaycanlılara qarşı 1905-1907, 1918-1920-ci illərdə soyqırımlar və etnik təmizləmə siyasətinin əvvəlcədən hazırlanmış və qəddarcasına həyata keçirilən siyasət olduğu oxucuların diqqətinə çatdırılır.

1918-ci ilin mart hadisələrinin Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra diqqət mərkəzində olduğu, Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən azərbaycanlılara qarşı törədilmiş zorakılığın araşdırılması məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradıldığı, lakin Xalq Cümhuriyyətinin süqutundan sonra bu prosesin dayandırıldığı, baş verənlərin sona qədər təhqiq edilməsinin və ona müvafiq siyasi-hüquqi qiymət verilməsinin qarşısının alındığı, Yalnız 80 il sonra - 1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanında həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verildiyi və 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edildiyi bildirilir.

Məqalələrdə 1989-cu ildən 1993-cü ilədək Ermənistanın Azərbaycana qarşı müharibəyə başlayaraq və ölkəmizin 20 faiz ərazilərini işğal etdiyi, Ermənistanda və Azərbaycanın işğal olunmuş ərazilərində milyonlarla azərbaycanlının etnik təmizlənməsini həyata keçirərək, çoxsaylı hərbi cinayətlər, insanlığa qarşı cinayət, soyqırımı törətdikləri, erməni təcavüzkarlarının işğalı altında olan Azərbaycan ərazilərində bir çox məscidlərin, tarixi memarlıq və müsəlman dini abidələrinin məhv edildiyi, bir çox dost və qardaş ölkələrin Ermənistanın Azərbaycana qarşı təcavüzünü pislədiyi, münaqişə ilə bağlı BMT və İslam Əməkdaşlıq Təşkilatının Ermənistan işğalçı qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılmasını tələb edən qərarların qəbul edildiyi oxucuların diqqətinə çatdırılır.

# Sığorta sistemində vətəndaş problemi

**Azərbaycanda əhalinin sığorta sisteminə inamının hələ də zəif olaraq qaldığını desək yanılmarıq. Ticarət Mərkəzində baş verən son hadisə nəticəsində sahibkarların düşdüyü çətin vəziyyət bunu bir daha təsdiqləmiş oldu. Azərbaycanda könüllü sığortaya maraq demək olar yox dərəcəsindədir. Nədənsə insanlar könüllü sığortaya meyil etmir. Halbuki inkişaf etmiş ölkələrdə əhali sığorta məsələsinə daha ciddi yanaşır. Ölkədə əhalinin könüllü şəkildə sığortaya cəlb edilməsi üçün müəyyən işlər görülsə də, sığorta sistemi demək olar ki, ancaq məcburi sığorta fonunda baş verir. Milli Məclisin son plenar iclasında çıxış edən millət vəkilləri də Azərbaycanda sığorta sistemi ilə bağlı problemlərin olduğunu qeyd edərək ölkədə sığorta institutunun formalaşmasının vacibliyini irəli sürdülər.**



Milli Məclisin deputatı Fəzail Ağamalı söyləyib ki, Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətləri fəaliyyətlərini inkişaf etmiş ölkələrdə olduğu kimi qurmalıdır: "Azərbaycanda xeyli sayda sığorta şirkətləri var. Lakin həmin şirkətlər hələ də inkişaf etməyiblər. Elə etməliyik ki, sığorta institutu formalaşsın. Bu zaman belə hallar yarananda sığorta şirkətləri baş verən hadisələr zamanı itkiləri ödəyə bilsin".



Deputat Fazil Mustafa deyib ki, dövlətin hadisələr zamanı ağır yükün altına girməməsi üçün sığorta ilə bağlı inamlı sistem yaradılmalıdır: "İcarə müqaviləsi bağlanan zaman sığorta ilə bağlı tələb qoyulmalıdır. Bu məsələlər qanunvericilikdə də bu əksini tapır. İş adamları iş yerləri açmalıdır ki, insanlar işləsin. Sığorta sistemi canlandırılmalıdır ki, iş adamları mal-mülkü sığorta etdirsin".

## O zaman ortaya sual çıxır. Bəs görəsən sığorta sistemində hansı problemlər var?

Məsələyə aydınlıq gətirən iqtisadçı ekspert Vüqar Bayramov bildirib ki, Prezident İlham Əliyevin ticarət mərkəzində baş verən hadisə ilə bağlı keçirdiyi müşavirədə qeyd etdiyi kimi, Azərbaycanda sığorta sistemində boşluqlar var.

Onun sözlərinə görə, sığorta sistemi xüsusən də biznes və real sektorda ciddi şəkil-



də inkişaf etməyib: "Biz hər zaman təklif etmişik ki, iri obyektlər (supermarketlər, ticarət mərkəzləri və digərləri) və orada olan məhsulların sığortalanması bu obyektlərin rəhbərləri tərəfindən həyata keçirilsin Bu halların icbari xarakter almasına ehtiyac var. İri obyekt rəhbərləri kifayət qədər iri məbləğdə gəlir əldə edirlər. İri obyektlərdə icarə haqlarının məbləğinin yüksək olduğunu nəzərə alsaq o zaman onlar üçün məhz sığorta xidmətindən istifadə edilməsi icbari xarakter daşımalıdır. Şirkət və ya müəssisə rəhbərləri birbaşa sığortadan istifadə etməklə həmin obyektdə çalışan kiçik sahibkarların məhsullarını sığortalamış olsunlar. Bu, digər tərəfdən sığortaya inamın artırılması istiqamətində fəaliyyətlərin gücləndirilməsinə ehtiyac var. Əslində sığorta sistemində iki mühüm məqam var ki, bunlardan biri inamın aşağı, digəri isə sığortanın əhəmiyyəti ilə bağlı məlumatlandırmanın az olmasıdır".



## İnsanlar sığorta sisteminə niyə inanmır?

Ekspert söyləyib ki, insanların sığortaya inamının artırılması istiqamətində fəaliyyətin gücləndirilməsinə ehtiyac var: "Sığorta Assosiasiyaları bu istiqamətdə fəaliyyətlərini gücləndirməlidirlər. Çünki bəzi hallarda sığorta şirkətlərinin bəzilərinin öz öhdəliklərini yerinə yetirə bilməməsi nəticədə ümumi sığortaya olan inamın azalmasına gətirib çıxarır. Bu da bir sıra hallarda sığorta şirkətlərinin öz öhdəliklərinə ya tam, ya da qismən yerinə yetirməməsi ilə bağlıdır. Məlumatlandırma vacibdir, medianın bu istiqamətdə rolu çox böyükdür. Media sığortanın əhəmiyyəti ilə bağlı həm sahibkarlar, həm vətəndaşlar arasında məlumatlandırma kampaniyası aparmalıdır. Bu da sığortadan istifadə edənlərin sayının artmasına gətirib çıxara bilər. Bütövlükdə baş verən son hadisə bir daha təsdiq edir ki, sığorta sistemi ilə bağlı fəaliyyətin genişləndirilməsi çox vacibdir. Sahibkarların sığortadan istifadə etməsinin təşviq edilməsinə ehtiyac var. Nəticə etibarı ilə həm Maliyyə Nazirliyi, həm də sığorta assosiasiyaları tərəfindən fəaliyyətlərin gücləndirilməsi vacibdir. Sığorta nəticə etibarı ilə həm biznesi gözlənilməyən xərclərdən qoruyur, həm də bu sistemin inkişafı ilə bağlı mühüm əhəmiyyət kəsb edir. Düşünürəm yaxın dövrlərdə əsas prioritet sığortaya inamın artırılması, məlumatlandırma tədbirlərinin genişləndirilməsi ilə bağlı olmalıdır".

## Azərbaycan qanunvericiliyi sığorta sistemi ilə bağlı nə deyir?

Hüquqşünas Sahib Məmmədov deyib ki, qanunvericiliyə əsasən yalnız üçüncü şəxslər qarşısında olan mülki məsuliyyətin sığortası icbari olmalıdır: "Yəni yalnız digərlərinə ziyan vurmaqla bağlı risklərin qarşısının alınması icbari şəkildə həyata keçirilir. Azərbaycanda daşınmaz əmlak və onun istismarı ilə bağlı məsələlər də icbari sığorta sisteminə daxil edilsə də, ölkədə 80-90 faiz nə evlər, nə də qeyri yaşayış sahələrinin icbari sığortası yoxdur. Bununla bağlı İnzibati Xətalar Məcəlləsində cərimə nəzərdə tutulsa da, bunun məcburi şəkildə tətbiq etmək mümkün deyil. Yalnız əmlak üzərində hüquqları həyata keçirdikdə - alqı-satqı etdikdə, bağışladıqda və ya girov qoyduqda o zaman notariat orqanlarında əmlak sahibləri məcbur olub onu sığortalayırlar. Digər hallarda insanlar əmlaklarını sığortalamaqdan yayınır. İri Ticarət Mərkəzləri, digər obyektlər də daşınmaz əmlak kimi sığortalanmalıdır".



## Satılan məhsula görə sığortanı kim etməlidir?

Onun sözlərinə görə, əsas problemlərdən biri obyektlərdə çalışan ticarətçilərin satdıqları məhsullarının sığortasının olmamasıdır: "Son baş verən hadisə də bunu bir daha təsdiq etdi. Satılan məhsulların sığortası könüllü olduğundan buna ticarətçilər özləri maraq göstərməlidirlər. Könüllü sığortanı icbari etmək üçün də xeyli işlər görülməlidir. Çox təəssüf ki, kiçik ticarətlə məşğul olanların heç birinin satdıqları məhsullara görə fakturası yoxdur. Satılan mallar kassadan keçməlidir. Bunun sayəsində dəyən zərəri bilmək olar. Hətta kassa aparatı yansa belə, bu məlumatlar vergi orqanlarının bazasında qalır. Əks halda həmin məhsullar heç bir sığorta şirkətləri tərəfindən sığortalana bilməz. Bəzən sığorta şirkətləri də risk olan yerləri sığortalamaqdan yan keçirlər. Çünki, onlar düşünür ki, riskli sığorta gələcəkdə onların müflisləşməsinə səbəb ola bilər".

Çatışmazlıqlar necə aradan qaldırılır?

S.Məmmədov qeyd edib ki, sığorta sistemi ilə bağlı çatışmazlıqları təkcə sığorta sisteminin qüsuru kimi də tətbiq etməməliyik: "Burada işlər kompleks şəkildə həyata keçirilməlidir. Bildiyiniz kimi ölkəyə gələn malların gömrükdən keçməsində əhəmiyyətli şəffaflaşma var. Bundan başqa vergi orqanları tərəfindən fakturasız malların satışı ilə bağlı ciddi cərimələr də nəzərdə tutulub. Bununla yanaşı "Sığorta haqqında" qanunvericiliyə də müvafiq dəyişiklik etməlidir. Xaricdən gələn məhsullarla yanaşı, yerli istehsal da var ki, onların uçotu aparılmır. Xüsusən də kənd təsərrüfatı məhsullarının uçotu yoxdur. Düzdür, kəndli vergidən azaddır. Amma bu, uçotdan azad olmaq demək deyil. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən də bu sistemin təkmilləşdirilməsi ilə bağlı müvafiq göstərişlər verilib. Bu istiqamətdə işlər gedir. Təkcə Azərbaycanda deyil, demək olar ki, bütün post sovet ölkələrində uçotdan yayınan mallar var. Dünyada geniş yayılan sığorta cinayətləri var. Bura malların qəsdlə yandırılması ilə sığorta şirkətlərinin aldadılması daxildir".

## Sığorta mədəniyyətini necə formalaşdıraq?

Hüquqşünas əlavə edib ki, Azərbaycanda sığorta mədəniyyəti yoxdur: "Bu mədəniyyəti formalaşdırmaq lazımdır. Bunun üçün məcbur etmə üsulundan istifadə etmək olar. Misal üçün 5 il bundan öncə piyada keçidlərində avtomobil saxlamadığı halda keçirdik. Lakin sonradan tətbiq olunan cərimələr insanları qaydalara əməl etməyə məcbur etdi. Bəzən mədəniyyət formalaşdırmaq üçün inzibati rıçaqlardan istifadə etmək lazımdır".

***Nailə Məhərrəmova***




MƏTLƏB
Metlebsalahov@mail.ru

## Minsk Qrupu kimin əlinə "oynayır"?

***Neçə dəfə öz-özümə söz vermişdim ki, bir də ATƏT deyilən oyuncaq qurum barədə barmaqlarıma əziyyət verib, bircə cümlə də yazmayacam. Amma son iki həftə ərzində baş verənlər yenə də məcbur elədi məni ki, 1992-ci ildən bəri Qarabağ üçün siyasi qəfəs rolunu oynayan ATƏT-in Minsk Qrupu barədə yazım. Məni narahat edən ATƏT-in Minsk Qrupu barədə ictimai rəydə yaranan qəribə "rəğbət" barədədir. Gör hansı vəziyyətdəyik ki, özümüzün ədalətli olduğumuz barədə bütün dünyanın gün işığı kimi bildiyi həqiqəti, ATƏT-dəkilər məcburən dilə gətirəndə, bunu bayrama çeviririk. Nə olub, nə baş verib ki, biz ATƏT-in Minsk Qrupunun həmsədrlərinin 27 ildən sonra məcburən dilə gətirdikləri adi həqiqəti diplomatiya bayramına çevirmişik?***

Qoy mən qısaca deyim, bilməyənlər də məsələnin əsl mahiyyətindən agah olsunlar. Məsələ belə olub. Cəmi bir neçə aya sadə və narazı ermənilləri arxasınca salıb Serj Sarkisyanı ortadan qaldıran, özü əsl siyasi layihə kimi ortaya atılan Nikol Paşinyan, siyasi sərsəmlik nümayiş etdirib. Deyib ki, bəs Qarabağla bağlı danışıqların formatı dəyişdirilməlidir və Qarabağdakı "erməni xalqı" üçüncü tərəf kimi danışıqlar masasında oturmalıdır. Minsk Qrupu da dərhal cavab verib ki, bəs danışıqların formatını dəyişməkdən söz salmaq mənasızdır. Danışansansa, elə bu formatda danış da. ATƏT-dəkilər on illərdir ki, davam edən "oyun qaydalarının" pozulmaması üçün Nikolcana təpiniblər. Vəssalam!

Bax, elə bu yerdə adamı dəli bir gülmək tutur da. Bəyəm erməni konyakı və azərbaycanlı kababı ilə bəslənən həmsədrlər nə deməli idilər ki? Durub N.Paşinyanın axmaq ideyasına "hə" deməklə, əməllicə özlərini ifşa etməli idilərmi? Yoxsa 27 ildir ki, xımır-xımır yediklər çörək ağacına təpik atmalı idilər? Bəyəm, onlar bilmirlərmi ki, ortada heç bir "Qarabağ xalqı" filan yoxdur? Onlar bilmirlər ki, Qarabağda azərbaycanlılar qədimdən yaşayır və maldar ermənilər sonradan buralara soxulub adam kimi yaşamağı azərbaycanlılardan öyrəniblər? Bilirlər, özü də bizim bildiyimizdən də əla bilirlər.

Çünki 1992-ci ildə arvadbaz Mario Rafaellonun və o zamankı ATƏT rəhbərlərinin qəbul etdiyi siyasi formatı qatlayıb tarixin zibilliyinə atmaq, açıq-aydın ATƏT-i və həmsədr ölkələri birdəfəlik Qarabağ danışıqlarından kənara tullamaq deməkdir. Buna gedərdilərmi? Qətiyyən!

Üstəlik, 27 ildir ki, bu həmsədrlər, məhz elə Qarabağ məsələsinə görə əməllicə yüksək gəlir qazanır, Xəzər kürüsündən və dadlı kababdan dadırlar. Ən azından, həmsədrlər "çörək ağacı" olan bu münaqişənin sakit tərzdə uzanmasına, daha çox "qocalmasına" çalışırlar. Həm Qarabağ münaqişəsini siyasi "qəfəslərində" saxlayır, həm də əməllicə dolanırlar. Buna deyərlər, əsl diplomatiya"!

Bu avaragur siyasi aktyor fərqində deyil ki, Qarabağda Saakiyan kimi quldur dəstəsindən və Suriya, Liviya kimi ölkələrdən gələn ermənilərdən başqa, heç bir xalq-filan yaşamır və dünya birliyi də orada hansısa xalqın mövcudluğu barədə ağzından bir kəlmə də olsun nəsə qaçırmayıb. Bu saqqallı "kütlə keçisi" bilməmiş deyil ki, Azərbaycanın işğal altındakı ərazilərində Ermənistan dövlətinin Təhlükəsizlik Şurasının iclasını keçirməklə, açıqdan-açığa beynəlxalq hüquqa təpik atır? Əla bilir. Həm də, onu da əla bilir ki, o beynəlxalq hüquq yalnız müsəlman dövlətləri üçün işləkdir. Erməni xaçları üçünsə, bu qanunların bir qəpiklik qiyməti də yoxdur. Nədir, yoxsa belə deyil?

Belə olmasaydı, Ermənistanın baş naziri Azərbaycanın işğal olunmuş torpaqlarında Təhlükəsizlik Şurasının iclasını keçirir, özünə hörmət edən bir dünya dövləti, xüsusi ilə Minsk Qrupunun həmsədr ölkələri cəsarət tapıb yalandan da olsa, demirlər ki, sən kəklikli arvadını da qoltuğuna vurub Azərbaycan torpağında nə sülənirsən? Deməzlər. Çünki...

# KİVDF-nin Müşahidə Şurası 25 ictimai-siyasi qəzetə maliyyə yardımı ayırıb

***Aprelin 1-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) Müşahidə Şurasının növbəti iclası keçirilib. KİVDF-dən AZƏRTAC-a bildiriblər ki, Fondun Müşahidə Şurasının sədri Həsən Həsənov iclası açaraq gündəlikdəki məsələ barədə məlumat verib.***




Bildirilib ki, gündəliyə daxil olan ilk məsələ Fondun 2019-cu ilin II rübü üzrə KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı elan etdiyi müsabiqəyə təqdim olunmuş sənədlərin müzakirəsi və təsdiqidir. Məsələ ilə bağlı məlumat verən icraçı direktor Vüqar Səfərli deyib ki, 2019-cu ilin ikinci rübü üzrə KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı elan edilmiş müsabiqə fevralın 1-dən martın 28-dək davam edib. "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"na əsasən 19 istiqamət üzrə keçirilmiş maliyyə yardımı müsabiqəsinə 25 qəzetdən sənəd təqdim edilib.

Qeyd edilib ki, 2019-cu ilin ilk rübündə maliyyə yardımı ayrılmış əksər qəzetlərin fevral-mart aylarında tiraj və yayımla bağlı Fonda təqdim etdikləri hesabatlar onların ikinci rüb üçün elan edilmiş yeni maliyyələşmə şərtlərinə hazır olmadıqlarını göstərib. Fond bu səbəbdən də güzəştli və humanist yanaşma nümayiş etdirərək fevral-mart aylarında tiraj və yayımla bağlı təqdim olunmuş sənədlər əsasında ictimai-siyasi qəzetlərin 3 kateqoriyaya (gündəlik, günaşırı və həftəlik) bölünməsini və maliyyələşdirilməsini təklif edir.

İcraçı direktor bildirib ki, birinci kateqoriyaya son 3 ildə müntəzəm nəşr olunan, tirajı 3000 nüsxədən, satış və abunəsinin cəmi 2000 nüsxədən, müsabiqə elan edilən gündən səhifələrinin sayı 16-dan (A3, B2 formatda) az olmayan gündəlik (həftədə 5 dəfədən az olmayaraq çap olunan) ictimai-siyasi qəzetlərin daxil edilməsi, onlara aylıq 20000 manat maliyyə yardımının ayrılması təklif olunur.

İkinci kateqoriyaya son 3 ildə müntəzəm nəşr olunan, tirajı 2500 nüsxədən, satış və abunəsinin cəmi 1500 nüsxədən, müsabiqə elan edilən gündən səhifələrinin sayı 16-dan (A3, B2 formatda) az olmayan, günaşırı (həftədə 3 dəfədən az olmayaraq çap olunan) ictimai-siyasi qəzetlərin daxil edilməsi, onlara aylıq 10000 min manat maliyyə vəsaitinin ayrılması məqsədəuyğun sayılır.

Üçüncü kateqoriyaya isə son 3 ildə müntəzəm nəşr olunan, tirajı 2500 nüsxədən, satış və abunəsinin cəmi 1500 nüsxədən, müsabiqə elan edilən gündən səhifələrinin sayı 24-dən (A3, B2 formatda) az olmayan həftəlik ictimai-siyasi qəzetlərin daxil edilməsi və onlara aylıq 5000 manat maliyyə vəsaitinin ayrılması təklif olunur.

Vüqar Səfərli vurğulayıb ki, yeni şərtlərə əsasən qəzetlərə ayrılacaq maliyyə yardımının əsaslı şəkildə artırılması nəzərdə tutulur. O, həmçinin bildirib ki, 2019-cu ilin II rübündə yeni şərtlərə cavab verməyən qəzetlərin maliyyələşdirilməsinin dayandırılması nəzərdə tutulur.

Sonra Müşahidə Şurasının üzvləri yayım və tirajla bağlı təqdim edilmiş sənədlər əsasında geniş müzakirələr aparıblar. Müzakirələr nəticəsində ictimai-siyasi qəzetlərin təklif olunan 3 kateqoriya üzrə bölgüsü həyata keçirilib.

Müşahidə Şurasının üzvləri bu qərarı qəzetlərin mənafeyinə tamamilə cavab verən güzəştli, humanist və optimal yanaşma kimi dəyərləndiriblər. Şuranın sədri Həsən Həsənov, sədr müavini İlqar Hüseynov, üzvlərdən Bəhruz Quliyev, İntiqam Hümbətov, Əvəz Rüstəmov və Rasim Həsənov çıxış edərək vurğulayıblar ki, yeni təkliflər əsasında ayrılan maliyyə vəsaitinin məbləğinin əsaslı şəkildə artımı qəzetlərdə çalışan çoxsaylı jurnalistlərin də mənafeyinə cavab verən məqsədəmüvafiq addımdır.

Müzakirələrin sonunda 2019-cu ilin II rübündə 25 gündəlik, günaşırı və həftəlik ictimai-siyasi qəzetin maliyyələşdirilməsi ilə bağlı qərar qəbul edilib.

## ATƏT-in fəaliyyətdə olan sədri Azərbaycan və Ermənistan liderlərinin Vyana görüşündə konstruktiv ab-havanı alqışlayıb

ATƏT-in fəaliyyətdə olan sədri, Slovakiyanın xarici işlər naziri Miroslav Layçak martın 29-da Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üzrə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında Vyanada keçirilən görüşlə bağlı bəyanat verib.



AZƏRTAC ATƏT-in rəsmi saytına istinadla xəbər verir ki, M.Layçak ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə Avstriyanın paytaxtında keçirilən görüşdəki konstruktiv ab-havanı alqışladığını qeyd edib. Bəyanatda deyilir: "ATƏT-in fəaliyyətdə olan sədri, Slovakiyanın xarici işlər naziri Miroslav Layçak dünən (martın 31-də-AZƏRTAC) Bratislavada ATƏT-in Minsk qrupunun həmsədrləri (İqor Popov, Rusiya Federasiyası; Stefan Viskonti, Fransa və Endrü Şöffer, Amerika Birləşmiş Ştatları) və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik ilə görüşüb. ATƏT-in fəaliyyətdə olan sədrinə Minsk qrupunun iştirakı ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən ilk görüş barədə məlumat verilib".

ATƏT-in fəaliyyətdə olan sədri danışıqların konstruktiv ab-havasını və liderlərin münaqişənin sülh yolu ilə həlli istiqamətində gələcəkdə konkret addımlar atılması niyyətlərini alqışlayıb. Layçak deyib "Biz bu məsələdə nikbinik və prosesi, eyni zamanda, liderlərin atəşkəs rejiminin möhkəmləndirilməsi və humanitar sahədə addımlar atılması səylərini tam dəstəkləyirik".

## Ermənistanda incəsənət xadimləri Paşinyan hökumətinə qarşı ayağa qalxdı!

Ermənistanda növbəti etiraz aksiyası keçirilir. Yerevanın mərkəzindəki hökumət binasının qarşısına toplaşanlar bu dəfə Paşinyanın mədəniyyət nazirinin "incəsənət islahatına" qarşı çıxıblar. AZƏRTAC erməni KİV-nə istinadla xəbər verir ki, yeni hökumətin mədəniyyət naziri vəzifəsini icra edən Nazeni Qəribyan Milli Opera və Balet Teatrının direktoru və bədii rəhbəri Konstantin Orbelyanı erməni dilində pis danışdığı üçün vəzifəsindən azad edib. Nazir əvəzi bu qərarını onunla əsaslandırıb ki, erməni dilini bilməyən məmur dövlətin teatrında vəzifə tuta bilməz.



Meydana toplaşan və baş nazir Nikol Paşinyanla görüş tələb edən etirazçılar bildiriblər ki, nazirin arqumenti incəsənətə aid edilə bilməz. "Musiqinin dili yoxdur" şüarını səsləndirən incəsənət xadimləri direktorun vəzifəsinə bərpa edilməsini və N.Qəribyanın istefaya göndərilməsini tələb edirlər. Onlar, həmçinin nazirliyi məhkəməyə verəcəklərini də bildiriblər. Etirazçıların nümayəndələrini qəbul edən baş nazir məsələ ilə məşğul olacağını söyləyib.

# Erməni təcavüzkarlığını inkişaf etdirən amillər: cinayət və cəzasızlıq

***Ötən dövrdə dünyada çox şeylər dəyişib, o cümlədən Azərbaycan sıçrayışlı inkişaf yolu keçib. Ən əsası odur ki, dövlətimiz qüdrətlənib, təcavüzkar Ermənistanın işğalçılıq siyasətinə qarşı milli müqavimət konsepsiyası müəyyən edilib. Bu müqavimətin formalaşmasında ulu öndər Heydər Əliyevin müəyyən etdiyi fəaliyyət istiqaməti böyük gücə malikdir. Bu yerdə Ulu Öndərimizin hələ 1991-ci ildə ifadə etdiyi bir acı gerçəkliyi xatırlamaq əhəmiyyətlidir:"... Ermənistan həmişə qəsbkar siyasət aparıb, biz isə həmişə müdafiə olunma, bəzən isə geri çəkilmə mövqeyində dayanmışıq. İndi də bu mövqedəyik".***



***Sabir Şahtaxtı siyasi elmlər üzrə fəlsəfə doktoru, AZƏRTAC-ın xüsusi müxbiri***

...Hər bir xalqın özünün yaşam tərzində və inkişafında ideologiyanın rolu şəksizdir. Müasir dünyada milli ideologiya təhlükəsizliyin əsasıdır. Lakin ideologiyanın əsasları sağlam, ədalətli, həqiqətə uyğun və sülhməramlı olmalıdır. Əks halda o yalnız qarşı tərəflərə yox, məxsus olduğu tərəfə də fayda gətirə bilməz və gec-tez mütləq mənada ciddi iflasa səbəb olacaqdır. Haqqında söhbət açmaq istədiyimiz mövzu saxta "böyük Ermənistan" iddiası ilə bağlıdır. Hansı ki təxminən iki yüz illik zaman kəsiyində bu iddia əsasında Anadoluda, Qafqazda və indiki İran ərazisində türk-müsəlman əhaliyə qarşı böyük cinayətlər, soyqırımı və deportasiyalar həyata keçirilmişdir, dünyanın ayrı-ayrı ölkələrində Azərbaycan və Türkiyəyə, eləcə də görkəmli şəxsiyyətlərimizə qarşı terror aktları törədilmişdir. Erməni təcavüzkarlığını bu toplumda milli xüsusiyyət kimi inkişaf etdirən əsas amil cinayət və cəzasızlıqdır. Səbəb budur ki, XIX əsrin sonlarından başlayaraq Osmanlı dövlətinə qarşı daha fəal şəkildə erməni toplumundan istifadə edən böyük güclər Birinci dünya müharibəsində onları yaşadıqları və sakini olduqları dövlətə qarşı, sözün əsl mənasında, qısqırda bilmişlər. Erməni millətçi dairələri bu funksiyalarını saxlamaqla özlərini mühafizə edə bilirlər.

İndi isə fikir və mülahizələrimizi daha aydın təqdim etmək üçün əvvəlcə saxta "böyük Ermənistan" əsasları barədə ümumi məlumat verək. Saxta erməni etnokorporasiyasına aid cəhətlər bunlardır: yalanı erməni toplumuna həqiqət kimi təqdim etmək; olmayan məsələdən mövzu düzəltmək; saxta mövzu ətrafında müzakirələr aparıb cəlbedicilik yaratmaq; bütün erməniləri saxta "böyük Ermənistan" iddiasının büdcəsinə vəsait ödəməyə məcbur etmək; prosesdən kənarda qalan erməniləri nümayişkaranə şəkildə cəzalandırmaq; bu məsələdə bütün vasitələrdən istifadə etməklə tərəfdarlar toplamaq, uydurulan "erməni məsələsi" mövzusunda saxta mənbələr yaratmaq və s. Mövzunun geniş olduğunu nəzərə alaraq 1905-1907-ci il hadisələri üstündə dayanmadan 1918-ci ilin mart qırğınlarından bəhs etmək fikrindəyik. Məhz saxta "erməni məsələsi" əsasında təkcə 1918-1920-ci illərdə ermənilər tərəfindən törədilmiş kütləvi qırğınların Bakı, Quba, Şamaxı, Kürdəmir, Lənkəranla yanaşı, Şuşada, İrəvan quberniyası ərazisində, Zəngəzurda, Naxçıvanda, Şərurda, Ordubadda, Qarsda və başqa bölgələrdə amansız şəkildə davam etdirilməsi nəticəsində on minlərlə azərbaycanlı ən qəddar üsullarla qətlə yetirilmiş, bir milyondan çox əhali öz doğma torpaqlarından didərgin salınmışdır. "1918-1920-ci illərdə indiki Ermənistan ərazisində yaşamış 575 min azərbaycanlının 565 min nəfəri öldürülmüş və doğma torpağından didərgin salınmışdır. Bu rəqəmi Z.Korkodyan özünün "Sovet Ermənistanının əhalisi 1831-1931" adlı kitabında təsdiq edərək yazır ki, "1920-ci ildə sovet hökumətinə daşnaklardan cəmi 10 min nəfərdən bir qədər artıq türk (azərbaycanlı) əhali qalmışdı. 1922-ci ildə 60 min qaçqın geri qayıtdıqdan sonra azərbaycanlılar burada 72 min 596 nəfər, 1931-ci ildə isə 105 min 838 nəfər olmuşdur".

Əvvəla, qeyd etməliyəm ki, müasir dövrdə müsəlman-türk aləminə qarşı təcavüzkar Ermənistanın və erməni millətçiliyinin fəaliyyəti aktiv şəkildə mövcuddur və bunlar bir-birinə bağlı olsalar da qarışdırılmamalıdırlar. 1918-ci ilə qədər, yəni qədim Azərbaycan torpaqlarında Ermənistan dövləti qurulana kimi bu funksiyanı erməni millətçi dairələri idarə ediblər və burada erməni kilsələrinin imkanlarından məharətlə istifadə olunub. Həmin dövrdən bu tərəfə isə Ermənistan dövləti ilə erməni millətçi dairələrinin fəaliyyəti birləşdirilib. Məsələnin mahiyyətini açmaq məqsədi ilə erməni cinayətlərini statistika üzərində yox, siyasi mahiyyəti baxımından təhlil etmək niyyətindəyik. 1917-ci ildə çar Rusiyası hökumətinin bolşevik inqilabı nəticəsində devrilməsi uzun illərdən bəri hərbi zülm altında olan xalqlara, o cümlədən Azərbaycana öz dövlət müstəqilliyini qurmaq şansı verdi. Lakin Anadolunun şərqindən, Cənubi Azərbaycan ərazilərindən və Qafqazdan çəkilən çar Rusiyasının hərbi birləşmələri silah və sursatlarını üç dəniz arasında dövlət qurmaq xülyası və iddiasında olan ermənilərə verməklə müsəlman-türk əhali üçün yeni bir təhlükə mənbəyi yaratdılar. Beləliklə, 1905-1907-ci illərin qanlı hadisələrinin ardınca, təxminən on bir illik fasilədən sonra 1918-ci ilin mart və aprel aylarında yenidən kütləvi qırğınlar başladı. Birmənalı olaraq bu qırğınların əsl məqsədi uzun illər çar Rusiyasının əsarətində olan Azərbaycanın dövlət müstəqilliyinin yaranmasının qarşısını almaq olmuşdur. 1918-ci il mayın 28-də Tiflis şəhərində bir qrup görkəmli ziyalımız tərəfindən şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin elan olunması ilə bağlı İstiqlal Bəyannaməsinin imzalanması regionda vəziyyəti dəyişdi. Azərbaycanda milli ordunun olmaması, ara verməyən tətillər, iqtisadiyyatın pozulması, kütləvi savadsızlıq, bolşevizm ideyasının sürətlə yayılması Cümhuriyyət hökumətinin qarşısında dayanan ən böyük problemlər idi. Lakin bundan da təhlükəlisi erməni silahlılarının Azərbaycanda tüğyan etdirdiyi qırğınlarının başa çatmaması, əksinə erməni silahlı dəstələrinin xarici qüvvələrin köməyi ilə sürətlə silahlanması və azğınlaşması idi. Birinci dünya müharibəsində Osmanlıya qarşı olan elə bir dövlət tapılmazdı ki, bölgədə ermənilərin silahlanmasına yardım etməsin.

Bu barədə mühüm bir tarixi fakt: 1919-cu ilin yanvarında Naxçımvamna vali təyin olunan ingilis polkovnik-leytenant Fremderik Eastfield Laughton, eləcə də bir müddət sonmra Laughtonu əvəz edən polkovnik-leytenant John Chalmmers Simpson yerli mülkədarlardan israrla tələb edirdilər ki, mütləq ermənilərə taxıl satsınlar. Göründüyü kimi, ermənilər silahla təmin olunsalar da, ərzaq təchizatında problemlər mövcud idi.

Belə bir şəraitdə çevik diplomatik manevrlər edən Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1918-ci ilin mart qırğınlarını araşdırmaq üçün yaratdığı Fövqəladə Tədqiqat Komissiyası və 31 Mart tarixinin Azərbaycanlıların soyqırımı günü elan edilməsi erməni vəhşiliyinin ifşa olunması istiqamətində ilk mühüm uğurlu siyasi addım kimi tarixə düşdü. Hökumətin məxfi üsulla Ermənistandakı diplomatik nümayəndə M.X.Təkinskiyə xüsusi tapşırıqlar göndərmişdir. Tələb olunurdu ki, İrəvan quberniyasında və Qars vilayətində erməni silahlı dəstələrinin müsəlman-türk əhaliyə qarşı törətdikləri cinayətlərə dair məlumatlar tərəfrüatlı şəkildə araşdırılsın. O cümlədən müsəlmanların əhali itkisi, mülkiyyətlərinə dəyən ziyanın məbləği, viran qalan yaşayış yerlərinin, həmçinin öldürülən və yaralanan insanları adı və digər məsələlər haqqında statistik məlumatlar toplayıb Xarici İşlər Nazirliyinə göndərsin. Mənbələrdə bildirilir ki, M.Təkinskinin yardımı ilə İrəvan Müsəlman Milli Şurası təcili şəkildə İrəvan Quberniyasında yaşayan azərbaycanlıların dözülməz vəziyyəti haqqında böyük dövlətlər üçün məlumat hazırlayıb Xarici İşlər Nazirliyinə göndərməyə nail olub. Nazirlik operativ olaraq həmin məlumatı Versalda olan nümayəndələrinə çatdırıb. Məlumatda xüsusi olaraq qeyd edilirdi ki, mübahisəli ərazilərı nəzərə almadan azərbaycanlılar Ermənistan əhalisinin ən azı yarısını təşkil edirlər.

Burada "Böyük Ermənistan" ideyasının daha bir istiqamətindən bəhs edəcəyik. Bu dəyişən ictimai-siyasi şəraitlərə uyğun olaraq hədəfə çatmaq üçün taktikanı dəyişməkdir. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin süqutu, daha dəqiq ifadə etsək, 1920-ci il aprelin 28-də Azərbaycanın sovet Rusiyası tərəfindən yenidən hərbi işğalı ölkədə bütün sahələr üzrə tənəzzül yaratdı. Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi 113.9 min kvadrat kilometr, o cümlədən mübahisəsiz ərazisi 97.3 min kvadrat kilometr, mübahisəli torpağı isə 16.6 kvadrat kilometr olmuşdur . Hazırda Azərbaycan Respublikasının ərazisi 86.6 min kvadrat kilometrdir . Təcavüzkar Ermənistan bu ərazinin iyirmi faizini işğalda saxlayır. Göründüyü kimi, Cümhuriyyətimizin süqutundan sonra Azərbaycan ərazisi olan torpaqlara zaman-zaman Ermənistanın xeyrinə qəsd edilmişdir. Bu torpaq qəsbkarlığı ancaq və ancaq dəyişən ictimai-siyasi şəraitlərdə baş tutmuşdur. Zəngəzurun Ermənistana verilməsi ilə Naxçıvan Muxtar Respublikası coğrafi baxımdan Azərbaycandan ayrıldı. Ermənistan ərazisindəki müsəlman-türk əhaliyə qarşı repressiyalar və deportasiya siyasəti həyata keçirildi. Bolşevik maskası ilə cildini dəyişən erməni millətçiləri bütün imkanlardan istifadə edərək Kremldə köklənməyə və sovet qanunlarından istifadə edərək Azərbaycan xalqına qarşı müxtəlif təcavüz aktları həyata keçirməyə başladılar. Beləliklə, 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərar qəbul edir. Həmin qərarda göstərilirdi ki, 1948-1950-ci illərdə könüllülük prinsipi əsasında Ermənistan SSR-də yaşayan 100 min kolxozçu və digər azərbaycanlı əhali Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülsün . Ermənilərin 1905-1907, 1918-1920-ci illərdə törətdikləri cinayətləri, həmçinin Zəngəzurun işğalını və 1948-1953-cü illərdə həyata keçirilən amansız deportasiyanı sovet dövründə unutdurmağa çalışsalar da, tarixdə olanları xalqın yaddaşından silmək mümkün olmadı. Azərbaycanı qan içində sovetləşdirən bolşeviklər keçmiş SSRİ-nin süqutu illərində də bu yolu seçdilər. Dağlıq Qarabağ münaqişəsini yaratmaqda məqsəd keçmiş SSRİ-ni yeni formada bərpa edənə qədər "Azərbaycanın başı dərddə gərək" prinsipini işə salmaq idi. Ötən əsrin əvvəlində olduğu kimi, sonunda da dövlətçiliyimizə qarşı köklənən bəd niyyətlərin həyata keçirilməsində yenə də ermənilərdən istifadə etdilər. Ermənistan və Azərbaycanla hərtərəfli münasibətlərdə olan ermənilər XX əsrin sonunda növbəti dəfə xəyanət yolu tutdular.

1987-ci ilin payızında ermənilər tərəfindən səsləndirilən Dağlıq Qarabağa ərazi iddiası iki tərəfi yenidən üz-üzə qoydu. Keçmiş SSRİ rəhbərliyi bu tərəflərin hər ikisinin haqqını ədalətlə quruma-

# Erməni təcavüzkarlığını inkişaf etdirən amillər: cinayət və cəzasızlıq

ğa, eyni zamanda, günahkar tərəfi, yumşaq desək sakitləşdirməyə borclu idi. Lakin burada erməni tərəfi iddialı və hücumçu, Azərbaycan isə yalnız qışqır-bağırla müdafiə olunmaq yolunda idi. Bu prosesdə erməni hiyləgərliyi yenə də öz təsirli rolunu oynaya bildi. Əvvəlcə Azərbaycanın Sumqayıt şəhərində hər iki tərəfin itkisi ilə nəticələnən münaqişə yaratdılar. Milliyyətcə erməni olan İsveçdən gəlmiş video-operator Artaşes Qabrielyanın lentə aldığı Sumqayıt hadisələri elə həmin gecə bir sıra Avropa ölkələrinin televiziya kanallarında efirə çıxarıldı. Artaşes Qab-rielyanın lentə aldığı Sumqayıt hadisələrinin həmin gün gecə Avrompa ölkələrinin televiziya kanallarında efirə çıxması bu hadisəmnin Azərbaycan xalqına qarşı düzəldilmiş məqsədyönlü siyasi-ideoloji təxribat olmasını əsaslandırmağa heç bir qaranlıq məqam saxmlamır. Artaşes Qabrielyanın hansı məqsədlə, Avropa ölkələri ilə gediş-gəlişin çətin olduğu bir vaxtda SSRİyə (Summqa-yımta - S.Ş) necə gəlməsi barədə suallar indiyədək cavabsız qalır. Avropa mətbuatı münaqişə zamanı guya minlərlə erməninin qətlə yetirilməsindən bəhs etsə də, hamdisə ilə bağlı araşdırma aparan istintaq qrupunun rəsmi məlummatında ölənlərin sayı 32 nəfər göstərilirdi ki, onların da təxminən yarısı azərmbaycanlılar olmuşdur . Digər bir fakt isə Sumqayıt hadisəmlərinmdə iştirak edən, amansız qətllər törətməkdə təqsirli bilinən, eyni zamanda zərərçəkən milmliyyətcə erməni olanların istintaqa verdikləri ifadələrdir. Məhmkəmmədə zərərçəkmiş erməni xanım L.Məjlumyan Sumqayıtda ermməmniləri qətlə yetirən Eduard Qriqoryan tərəfindən zorlanmdığını bildirmişdir. Eduard Qriqoryanın iğtişaş zamanı adamlara pulsuz narkotik maddə paylamasına dair istintaq sübutları vardır. Sumqayıt hadisələri mahiyyət etibarilə özündə iki təhlükəli məqsədi birləşdirmişdir. Birincisi, Azərbaycan və Ermənistan arasında münaqişəni qızışdırmaq, ikincisi saxta "Böyük Ermənistan" iddiası üçün üzvlük haqqı verməyən erməniləri cəzalandırmaq.

SSRİ-nin hüquq-mühafizə, həmçinin dövlət təhlükəsizlik orqanlarının gözü qarşısında törədilən Sumqayıt hadisələri əsasında Azərbaycan tərəfi tam şəkildə informasiya blokadasına alındı. Moskva tabeliyində olan KİV-lər saxta "məzlum erməni" obrazı yaratmağa başladılar. Qızışdırılmış münaqişəni bəhanə gətirən Ermənistan SSR rəhbərliyi bu ölkədəki türk-müsəlman əhalini zor gücünə öz ata-baba yurdundan və qədim torpaqlarından amansızcasına qovulmasını təşkil etdi.

1991-ci il sentyabrın 3-də Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi beynəlxalq ictimaiyyətin, xüsusilə nəhəng siyasətçilərin nəzər-diqqətini Naxçıvana yönəltdi. Ulu Öndərimizin siyasi fəaliyyətinin çoxşaxəliliyi və dəqiq hədəfləri Naxçıvanın gələcək işıqlı həyatını təmin etdi, işğal təhlükəsi arxada qaldı. Heydər Əliyev 1992-ci il yanvarın 19-da qardaş Türkiyənin, aprelin 1-də ATƏM-in (hazırda ATƏT), mayın 27-də Birləşmiş Millətlər Təşkilatının Naxçıvana göndərdiyi xüsusi nümayəndə heyətlərini, iyunun 17-də ABŞ-ın Azərbaycandakı müvəqqəti işlər vəkili R.Maylsı, iyulun 23-də Rusiya Prezidentinin xüsusi tapşırıqlar üzrə səfiri, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla aradan qaldırılması üzrə rusiyalı vasitəçi nümayəndəliyinin rəhbəri Vladimir Kazimirovu, 1993-cü il martın 5-də Böyük Britaniyanın Azərbaycandakı daimi nümayəndəsi Harold Fomstoku və Fransanın Azərbaycandakı səfiri Jan Perreni qəbul etdi.

Bu görüşlərin hər birində Naxçıvanın təcavüzkar Ermənistan tərəfindən tam blokadaya alınması, işğalçı dövlətin hərbi hücumlarının yaratdığı təhlükələr Heydər Əliyev tərəfindən qabardılır və beynəlxalq KİV vasitəsilə dünya birliyinin diqqətinə çatdırılırdı. Ulu öndər Heydər Əliyev Naxçıvana rəhbərlik etdiyi dövrdə özünün uzaqgörən siyasəti ilə muxtar respublikanın başı üstünü almış işğal təhlükəsini əzmlə aradan qaldırır, əhalinin minimum tələbatını təmin etmək üçün qonşu ölkələrin və beynəlxalq təşkilatların yardımlarını bölgəyə cəlb edirdi. Ulu Öndərin keçirdiyi görüşlər və imzalanmış sənədlər muxtar respublikada ictimai-siyasi vəziyyətin sabitləşməsinə və mürəkkəb sosial-iqtisadi məsələlərin həllinə şərait yaratdı. Naxçıvanı Bakı ilə birləşdirən yeganə nəqliyyat yolu - Naxçıvan hava limanı yenidən quruldu. Türkiyədən, İrandan Naxçıvana ərzaq yardımları gəldi, Heydər Əliyev Türkiyədə və İranda rəsmi səfərlərdə oldu. Dövlət və hökumət başçıları ilə görüşdü, əməkdaşlıq protokolları imzalandı. Türkiyədən və İrandan Naxçıvana elektrik enerjisi verildi. Naxçıvanda Türkiyənin və İranın baş konsulluqları açıldı. Azərbaycanla Türkiyə arasında yeganə birbaşa əlaqə olan "Ümid" körpüsünün istifadəyə verilməsi Naxçıvanda həyat tərzini sıçrayışla dəyişdi, muxtar respublikanın müdafiə qüdrətinin artmasına əhəmiyyətli təsir göstərdi. Heydər Əliyev Naxçıvanı qorumaq üçün "Qars" müqaviləsinin əsaslarından məharətlə bəhrələndi. XX əsrin əvvəllərində qazi Mustafa Kamal Atatürk, Kazım Qarabəkir Paşa, Behbud bəy Şahtaxtinski və digərlərinin Naxçıvanı xilas etmək kimi şərəfli missiyalarını ötən əsrin sonunda ulu öndər Heydər Əliyev təkbaşına həyata keçirib. Naxçıvanın xilasında Türkiyə dövləti, hökuməti və xalqı yaxından iştirak edib. Əgər Heydər Əliyev 1993-cü ildə doğma xalqının imdadına çatmasaydı, Azərbaycan bir dövlət kimi yox ola bilər və bu arzuolunmaz hal Türkiyəyə də problemlər gətirərdi. 1991-ci il dekabrın 19-da isə ermənilər bütün vasitələrdən, o cümlədən irimiqyaslı silahlı basqınlardan istifadə edərək Azərbaycanla Ermənistan arasındakı dəmir yolunda hərəkəti dayandırdılar. Bununla da, Naxçıvan Muxtar Respublikasını tam blokadaya saldılar. Prezident İlham Əliyevin dediyi kimi: "...O vaxt naxçıvanlılar Heydər Əliyevin rəhbərliyi altında böyük qəhrəmanlıq və şücaət göstərmişdilər. Ermənistan tərəfindən edilən bütün hücumlara çox layiqli cavab verilmişdi və düşmən yerinə oturdulmuşdu. O anlarda, o aylarda, o illərdə Naxçıvanın taleyi həll olunurdu və bir daha o tarixə nəzər salaraq görürük ki, əgər Heydər Əliyev o vaxt Naxçıvanda olmasaydı, yəqin ki, Naxçıvanın taleyi çox acınacaqlı ola bilərdi".

Ulu öndər Heydər Əliyev Naxçıvanda siyasi hakimiyyətə gələndən xeyli əvvəl, ermənilərin Dağlıq Qarabağa olan əsassız iddiasının yaratdığı təhlükə barədə Azərbaycan parlamentinə bəyanat vermiş, sonrakı dövrlərdə dəfələrlə KİV-ə müsahibəsində milli müdafiə konsepsiyasına ehtiyac olduğunu əsaslandırmışdı. Bu konsepsiyaya həm hərbi müdafiə, həm informasiya blokadasını yarmaq, həm də ideoloji mübarizənin istiqamətlərinin yaranması daxil idi.

Azərbaycan xalqının 1993-cü ildə təkidli tələbi ilə ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ermənilərin Azərbaycanı müstəqil dövlət kimi məhv etmək planlarını pozdu. Ulu öndər Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə Azərbaycan parlamenti 1990-cı il 20 Yanvar faciəsinə, ondan ardınca isə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda törədilən soyqırımına hüquqi-siyasi qiymət verəndən sonra Azərbaycanda əsassız erməni iddialarına qarşı müəyyən bir mübarizə istiqaməti yaradılmışdı. Lakin bu qərarlar erməni təcavüzkarlığına qarşı mübarizədə bütövlüyü təmin etmirdi. Çünki erməni millətçi dairələrinin əsası XX əsrin ilk illərindən başlayaraq və yarandığı gündən Azərbaycan və Türkiyəyə (Osmanlı dövləti də daxil olmaqla), müsəlman-türk əhaliyə qarşı düşmənçilik mövqeyində olan təcavüzkar Ermənistanın əsl mahiyyətini göstərmək üçün, ilk növbədə, təcavüzkar dövlətin xislətini öyrənmək və bilmək tələb olunurdu. Nəhayət, ümummilli lider Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli Fərman imzalamaqla, tarixdə ilk dəfə olaraq "Böyük Ermənistan" ideyasına qarşı ümumtürk fəaliyyət proqramının əsasını yaratdı. Bu Fərman əsasında 31 Mart tarixi Azərbaycanlıların Soyqırımı Günü müəyyən edilmişdir. Məhz bu tarixi sənəd əsasında görülən işlər, aparılan tədqiqatlar, o cümlədən arxiv materiallarının ictimailəşməsi, eləcə də xarici mütəxəssislərin mövzu ətrafında fəaliyyətə cəlb olunmasını təmin etdi. Qeyd etmək lazımdır ki, Ulu öndər Heydər Əliyev 1993-2003-cü illərdə Azərbaycan parlamentində Dağlıq Qarabağa həsr olunan müzakirələrdə dəfələrlə bir tarixçi dəqiqliyi ilə saxta "Böyük Ermənistan" ideologiyası və onların hədəfə çatmaq üçün istifadə etdikləri metodlarla bağlı fikir və mülahizələrini faktlar əsasında bölüşmüşdür. Qeyd etmək lazımdır ki, Prezident İlham Əliyev "1918-ci ildə azərbaycanlıların soyqırımının 100 illiyi haqqında"18 yanvar 2018-ci il tarixli Sərəncam imzalamış və bu sənəd əsasında ötən il tarixi əhəmiyyətli işlər görülmüşdür. "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanın günümüzə qədər ortaya çıxardığı işlərə müraciət etməzdən əvvəl saxta "böyük Ermənistan" iddiasının ən təhlükəli cəhəti "məqsədə çatmaq üçün hər şey etmək olar" prinsipini erməni toplumunda formalaşdırmasıdır ki, bu hal toplumun genealogiyasındakı mənfi cəhətləri daha da ağırlaşdırır. Nəticədə hiyləgərlik, yalan, şayiə yaymaq, casusluq, saxtakarlıq, qətl və qarət kimi xüsusiyyətlər cinayətkar erməni də adi bir fəaliyyət yoluna çevrilir. Bunları təsdiq edəcək bir neçə fakt sadalayaq:

- XX əsrin əvvəllərində əsasən indiki İranın Şərqi və Qərbi Azərbaycan vilayətlərində mövcud olan "Cilovluq" silahlı hərəkatının əsas məqsədi Araz çayı ətrafındakı türk-müsəlman əhalini qırmaq və qovmaq, bu yerlərdə erməni və assuriləri məskunlaşdırmaq olmuşdur . Bəzi tarixi mənbələrdə yazılır ki, ermənilər törətdikləri soyqırımın tarixi və hüquqi məsuliyyətindən yaxa qurtarmaq üçün İrandakı assuriləri də özlərinə qoşmuşdular. Tarixçilər yazır ki, ermənilər assuriləri sərxoş vəziyyətə qədər içirdib əllərinə silah verirmişlər. Belə bir vəziyyətdə assurilər çox vaxt nə etdiklərini, niyə müsəlmanları qırdıqlarını dərk etmək, düşünmək iqtidarında olmurmuşlar.

- 1918-ci ilin martında erməni silahlıları indiki İranın Xoy şəhərinə hücum edirlər. Yerli qüvvələr şəhəri təhlükədən qurtarmaq üçün əhalini şəhər qalasına çəkib darvazaları bağlayırlar. Bu vaxt Osmanlı ordusunun zabiti paltarında olan üç nəfər gələrək şəhər rəhbərliyi ilə danışmaq istədiklərini bildirirlər. Onları içəri buraxırlar. Gələnlər bildirirlər ki, şəhər kənarında xoylulara köməyə gələn Osmanlı ordusunun qoşunları var. Söhbət əsnasında şəhər ağsaqqalları çağırılmamış qonaqlardan şübhələnirlər. Xəlil adlı cəsur bir şəxs şəhər qapılarının açılmasına qarşı çıxır. O, kəndirlə divardan sallanaraq qaladan o tərəfə düşür və erməni silahlı dəstələrinin hücuma hazır dayandıqlarını öyrənir. Məlum olur ki, rus silahları ilə yaraqlanmış erməni quldurların hətta pulemyotları da vardır. Onlar Osmanlı hərbçilərinin paltarını geyinməklə əhalidə Osmanlı ordusuna qarşı inamsızlıq yaratmaq və bu hiylə ilə əhalini qırmaq istəyirdilər. Xəlilin bu barədə xəbəri vaxtında çatdıra bilməsi nəticəsində yaranmış təhlükənin qarşısı alınır.

- 1905-1907-ci illərdə Şamaxıda kütləvi qırğınlar törədən ermənilər şayiə yayırdılar ki, guya daşnaklar sünnü müsəlmanlara toxunmurlar . 1918-ci ildə Bakıda soyqırımına məruz qalan müsəlman əhalinin köməyinə gələn Dağıstan könüllülərini geri qaytarmaq məqsədi ilə ermənilər şayiə yaymışdılar ki, guya Bakı rəsmi olaraq ingilis qoşunlarına təhvil verilib. Belə şəraitdə Bakıya köməyin əhəmiyyətsiz olduğunu düşünən dağıstanlılar Xırdalandan geri qayıtmışlar. Ermənilər sovet hakimiyyətinin süqutu illərində Azərbaycana qarşı başladıqları növbəti ərazi iddialarının gerçəkləşdirilməsində də şayiə yaymaq metodundan geniş istifadə etmişlər.

Ardı Səh. 10

# Erməni təcavüzkarlığını inkişaf etdirən amillər: cinayət və cəzasızlıq

Əvvəli Səh. 9

- Xocalı soyqırımı törədilən günün səhəri, yəni fevralın 26-da hava işıqlaşanda meşədə köməksiz qalan azərbaycanlılar qarşıda bir dəstə silahlı görürlər. Silahlılar Azərbaycan türkcəsində onları çağırmış və azərbaycanlı olduqlarını deyərək aldatmışlar. Beləliklə, silahsız daha bir dəstə Xocalı sakini erməni quldurlarının hiyləsinə inanaraq əsir düşmüşdür.

- 2009-cu ildə İranın Qərbi Azərbaycan vilayətində ABŞ vətəndaşı Sara Şroud həbs edilib. Milliyyəti erməni olan Sara Şroudun xüsusi təlim görmüş təcrübəli casus olduğu təsdiq olunub. O, topladığı casus materiallarının bir qismini həbs olunana qədər lazım olan ünvana çatdıra bilib. Casus qadın İran ərazisinə Ermənistan vasitəsilə qaçaq yolla daxil olub. S.Şroud 2010-cu ildə 500 min ABŞ dolları müqabilində azadlığa buraxılır. 2011-ci ildə daha bir amerikalı erməni casus qadın İran ərazisinə soxula bilir. İran Culfasında yaxalanan 34 yaşlı Hol Taleyanın xüsusi tapşırıqlar əsasında bu ölkəyə Ermənistandan qaçaq yolla keçməsi aşkarlanır. İranın xüsusi xidmət orqanlarının əməkdaşları casus H.Taleyanın yuxarı diş protezində videoçəkiliş aparmaq və səsyazma imkanına malik olan unikal cihaz aşkar edirlər.

- 2012-ci ilin yanvarında Yerevanda ASALA-nın yaranmasının 37-ci ildönümü təntənəli qeyd olunub. Mərasimdə terrorçu təşkilatın xarici dövlətdə yaşayan üzvlərinin bir neçəsi iştirak edib. Onlardan beş nəfəri müxtəlif illərdə ayrı-ayrı ölkələrdə qanlı terror törətmiş və aldıqları cəza müddətlərindən əvvəl azadlığa buraxılmış şəxslər olublar.

- 2016-cı ilin fevralında əksəriyyəti Ermənistan vətəndaşı olan ermənilərdən ibarət quldur dəstə İstanbulda yaşayan erməni ailəsinin 85 yaşlı üzvü Yakup Dəmirçini amansızlıqla qətlə yetirib, onun həyat yoldaşı 79 yaşlı Ayda Dəmirçini ağır yaralayıblar.

A.Dəmirçi jurnalistlərə açıqlamasında məlumat verib ki, onların Şişli rayonunda yerləşən evinə girən quldur dəstənin üzvləri ərlə arvadın əl-qolunu donuz ipi ilə bağlayıblar. Ağır işgəncələrdən sonra Y.Dəmirçi quldurlar tərəfindən məhz donuz ipi ilə boğularaq öldürülüb. Quldurlar evdən təxminən 33 min ABŞ dolları məbləğində türk lirəsi və külli miqdarda qızıl-zinət əşyaları götürüblər . Zərərçəkənlərin nə üçün köpək ipi və yaxud quzu ipi ilə yox, məhz donuz ipi ilə bağlanılması çoxlu suallar yaradır. Bu fakta daha bir əlavə: Ermənistan vətəndaşı Stella və oğlu Varlam evində təmizlik işləri gördükləri Vedat Yöngelü qarət məqsədi ilə İstanbuldakı mənzilində öldürüblər (18 fevral 2019). Türkiyə polisi qatil ana və oğlunu İnterpol vasitəsilə axtarışa verib. Bildirilir ki, qatil ana-bala cinayəti törədəndən sonra İstanbuldan Qarsa uçub, oradan Gürcüstana keçərək Ermənistana gediblər.

Faktlar sübut edir ki, erməni cinayətkarlar davamlı olaraq "Böyük Ermənistan" ideyasına maddi yardım etməyən erməniləri bu kimi üsullarla cəzalandırıblar. Yəni, erməni terrorizmi ermənilərin öz nümayəndələrindən də yan keçməməkdədir. Məhz erməni terrorçu təşkilatlarına maliyyə yardımı göstərməkdən imtina etdiklərinə və erməni millətçilərinin separatçı və silahlı cinayətlərinə zidd mövqedə olduqlarına görə, 1903-cü ildə bankir Camqarov Moskvada, 1907-ci ildə gəbə ticarətçisi Tavşancyan Nyu-Yorkda, 1908-ci ildə inqilabçı-yazıçı Arpiar Arpiaryan Kairdə, 1914-cü ildə Amayak Aramyan, 1915-ci ildə Mkrtıç Arutyunyan və Vaqe İxsan (Esayan) Türkiyədə terrorçu ermənilər tərəfindən amansızlıqla qətlə yetirilmişlər. 1999-cu il oktyabrın 27-də Ermənistan parlamentində törədilmiş terror aktı da daxil olmaqla, bu siyahını davam etdirmək mümkündür. Müasir dövrdə dünya şöhrətli müğənni və diplomat Şarl Aznavur, tədqiqatçı Kristofer Qann, siyasətçi Paruyr Hayrikyan, Moldovanın parlament vəkili (ombudsman) Aureliya Qriqoriu və digər şəxslər dəfələrlə erməni terrorizminin təhdidləri ilə üz-üzə qalıblar. Bir sıra tədqiqatçılar əsaslandırır ki, erməni əsilli jurnalist Hrant Dinkin qətlinin sifarişçisi məhz "böyük Ermənistan" ideologiyasıdır.

- 2011-ci ilin aprel ayında ASALA Türkiyəyə meydan oxuyan bir elanla yenidən üzə çıxmışdır. Elanın sonunda bir ifadə isə erməni millətçilərinin iç üzünü tamamilə açır: "Hakop Hakopyan yaşayır, biz hamımız Hakopyanıq". Adına istinad olunan erməni terrorçusu Hakopyan ABŞ-da Qurgen Yanikyan tərəfindən iki türk səfiri öldürüldükdən sonra bir sıra erməni ziyalılarının dəstəyi ilə ASALA-nı yaradıb və bu terrorçu qruplaşmanın xaç atası hesab olunur. 1951-ci ildə Mosulda (İraq) anadan olub, 1988-ci il aprelin 28-də Afinada öldürülüb. Bu o terrorçu Hakopyan Hakopdur ki, - uzun illər həm də Miqranyan Miqran və Takoşyan Arutyun adları ilə yaşamışdır. Nəhayət, 1988-ci il aprelin 28-də Afinada, aeroporta getmək üçün taksi gözləyərkən öz silahdaşları tərəfindən qətlə yetirilmiş Hakopyanın üzərindən cənubi Yəmən vətəndaşı Abdul Mohammed Kasim adına pasport tapılmışdır.

- 2011-ci il iyulun 11-də Küveytin hüquq-mühafizə orqanları tərəfindən ermənilərdən ibarət mütəşəkkil cinayətkar dəstənin zərərsizləşdirilməsinə dair məlumat yayılıb. Bildirilir ki, bu ölkənin Daxili İşlər Nazirliyinin kriminal hallar idarəsinin əməkdaşları böyük villalardan və qızıl-zinət mağazalarından külli miqdarda qızıl məmulatları və bahalı əşyalar oğurlayan Rusiya vətəndaşı olan altı ermənidən ibarət peşəkar cinayətkar dəstəni həbs ediblər. Tərkibində iki erməni qadının da olduğu soyğunçu və quldur dəstə son dörd il ərzində bir milyon Küveyt dinarı (təxminən 3 700 000 ABŞ dolları) məbləğində qızıl-zinət əşyaları oğurlaya biliblər. Onlar əsasən, yay mövsümlərində kommersiya məqsədli viza ilə Küveytə gələrək zəngin insanların villalarını soymaqla məşğul olublar. İlkin istintaq nəticəsində məlum olub ki, ermənilərdən ibarət bu quldur dəstə oğurluq və soyğunçuluqla əldə etdiyi qənimətlərin bir hissəsini ərəb ölkələrində fəaliyyət göstərən erməni diaspor təşkilatları ilə bölüşürmüş.

- 2009-cu ilin avqustunda PKK tərəfdarları Yerevanın mərkəzi meydanında Türkiyə əleyhinə mitinqlər keçirib. Bu barədə ən son məlumatlara görə, Ermənistan PEJAK yaraqlıları üçün öz ərazisində və bu dövlətin işğal altında saxladığı Azərbaycan torpaqlarında hərbi təlim düşərgələri yaradıb . Xatırladaq ki, PKK Türkiyəni, PJAK isə İranı parçalamağı qarşısına məqsəd qoyub. İran ərazisində ələ keçirilən PJAK üzvləri Ermənistan ərazisində hərbi təlim keçdiklərini etiraf ediblər. Qeyd edə bilərik ki, bu terrorçu təşkilatlardan heç birinin fəaliyyəti kürd xalqı üçün faydalı sayıla bilməz.

Yuxarıda sadaladığımız və çox əsaslı faktlarla daha da davam edə biləcəyimiz bu siyahıda göstərilənlər erməni mütəşəkkil dəstələrinin transmilli cinayətlərinin yalnız bir hissəsidir. Bu cinayətlərin təhlili, onların mahiyyət və sahələr üzrə müxtəlifliyi onu deməyə əsas verir ki, saxta "Böyük Ermənistan" iddiası bölgədə sabitliyi, inkişafı, tərəqqini, qarşılıqlı xoş münasibətləri pozan bir fəaliyyət istiqamətidir. Haqqında bəhs etdiyimiz Ferman bu saxta ideologiyanın ifşası üçün konkret vəzifələr müəyyən edib. Onlardan biri də məhz erməni millətçi dairələrin və Osmanlı dövlətinin parçalanmasında maraqlı olan böyük güclərin yüz ildən artıq zaman kəsiyində türk xalqına qarşı iddia etdikləri saxta "erməni soyqırımı" məsələsinin yalan olduğunu dünya ictimaiyyətinə çatdırmaqdır. Saxta "erməni soyqırımı" iddiası müasir Türkiyə dövlətinə qarşı siyasi təzyiq vasitəsidir. Hər dəfə dünyanın siyasi xəritəsində dəyişiklik olanda ayrı-ayrı dövlətlər, o cümlədən ABŞ bu hadisə ilə bağlı fərqli mövqe nümayiş etdirib. Məsələn, ABŞ-ın keçmiş prezidenti Ronald Reyqanın hüquq məsələləri üzrə müşaviri Bryuz Felin bildirib ki, Ağ Evin araşdırması nəticəsində 1915-ci ildə ermənilərin iki milyon Osmanlı türkünü qətlə yetirdiyi müəyyən olunub. 1981-ci ildə həmin məsələ Ağ Ev tərəfindən araşdırılmış və saxta erməni iddialarının əsassız olduğu sübut edilib. Təəssüf ki, ABŞ tərəfi arxiv materiallarına əsaslanan bu mövqeyini həmişə eyni ruhda sərgiləmir.

Yuxarıda qeyd etdiyimiz vəzifələrdən biri və daha əsaslısı saxta "erməni məsələsi" ilə bağlı xarici tədqiqatçıları məlumatlandırmaqdır. Bu mənada müasir dövrdə erməni təcavüzünün ifşası istiqamətində yazılan ən dəyərli əsərlərdən biri görkəmli almaniyalı tədqiqatçı Jonnos Rounun "Ermənistan və Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsi: yığcam tarixi eskiz" kitabıdır. Litvalı alim İmantas Melyanasın məşhur "Azərbaycan xalqına qarşı soyqırımı (1905-1994)" adlı tarixi oçerki, ABŞ-lı alim Samuel A.Uimz "Ermənistan terrorçu "xristian" ölkənin gizlinləri" əsərlərini göstərmək mümkündür. Bu sıraya Fayql Erix və Quram Marxuliya və başqalarının araşdırmalarını da əlavə edə bilərik.

Qeyd edək ki, ABŞ-lı tədqiqatçı Samuel A.Uimz diplomatik pərdə altında ABŞ, Avropa ölkələri və Rusiyanın Osmanlı dövlətinə qarşı həyata keçirdiyi casusluq fəaliyyəti barədə çox tutarlı faktlar təqdim edib. Müəllifin qələmə aldığı "Ermənistan - terrorçu "xristian" ölkənin gizlinləri" əsəri (Samuel A. Weems "Armenia: Secret of a "Chiristian" Terrorist State", St. John Press, Texass, 2002) beynəlxalq aləmdə sensasiya yaradıb. Dəfələrlə ermənilərin hədəsinə düçar olan alim yolundan dönməsə də, başladığı işi tam şəkildə axıra çatdıra bilməyib. Adı çəkilən kitabın nəşrindən az sonra ABŞ də öz evində müəmmalı şəkildə dünyasını dəyişən Samuel A.Uimzin ölümünün əsl səbəbi barədə indiyədək rəsmi açıqlama verilməyib. Bəhs etdiyimiz kitabın ikinci cildinin əlyazması tədqiqatçının evindən oğurlanıb.

Son illər bu sahədə görülən işlərin nəticəsi olaraq Rusiyanın siyasi və elmi ictimaiyyətlərini təmsil edən tanınmış şəxslər də sağlam mövqe nümayiş etdirməyə başlayıblar. Belə ki, Rusiyanın tanınmış tarixçisi və siyasi analitiki, tarix elmləri doktoru Oleq Yuryeviç Kuznetsov 2017-ci ilin martında Xocalı soyqırımının tanınması üçün petisiya keçirib. Alim hələ 2017-ci il yanvarın 7-də Rusiya Federasiyası Ali Məhkəməsinin sədrinin adına erməni terrorçuları tərəfindən 40 il əvvəl (1977) ermənilər tərəfindən Moskvada törədilən silsilə terror aktları haqqında cinayət işinin məxfilikdən çıxarılmasını tələb edən petisiya tərtib edib.

Sonda heç bir şərh vermədən mühüm bir tarixi hadisə barədə kiçik bir arayış yazmaq niyyətindəyik. 2018-ci il fevralın 20-də Türkiyənin Kayseri şəhərinin Talas bələdiyyəsi ərazisində Xocalı parkının və Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidənin açılış mərasimi keçirildi. Mərasimdə Rusiya Federasiyası Dövlət Dumasının deputatları İrina Rodnina, Dmitri Savelyev, Oksana Puşkina və Dumanın məsul əməkdaşı Ramin Qasımov çıxış ediblər. Rusiyalı deputatlar həmin gün məhz Türkiyədə ucaldılan Xocalı soyqırımı abidəsi önünə gül-çiçək düzərək 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycan xalqına qarşı törədilən cinayətin soyqırımı aktı olmasını bəyan ediblər....

## DİN sosial şəbəkələrdə və bəzi internet saytlarında yer alan videogörüntü ilə bağlı açıqlama yayıb

***Daxili İşlər Nazirliyi (DİN) martın 31-də sosial şəbəkələrdə və bəzi internet saytlarında yayılan, bir qrup şəxsin sərxoş vəziyyətdə əxlaqsızlığı təbliğ edən və cəmiyyətdə mövcud etik-davranış qaydalarına zidd hərəkətləri əks etdirən videogörüntü ilə bağlı məlumat yayıb.***



DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, videogörüntü geniş ictimai rezonans doğurduğundan və cəmiyyətin müxtəlif təbəqələri tərəfindən haqlı olaraq böyük narahatlıq və narazılıqla qarşılandığından Daxili İşlər Nazirliyi rəhbərliyinin tapşırığına əsasən məsələ ilə əlaqədar təxirəsalınmaz əməliyyat tədbirləri həyata keçirilib. Nəticədə həmin görüntülərdə əks olunan iki kişinin və üç qadının şəxsiyyətləri müəyyən edilib. Onlar saxlanılaraq Nəsimi Rayon Polis İdarəsinə gətirilib, istifadələrində olan "Land Rover" markalı avtomobil isə mühafizə olunan duracağa yerləşdirilib.

Araşdırmalar zamanı məlum olub ki, həmin eyş-işrət məclisi paytaxtdan kənardakı bağ evlərindən birində Bakı şəhər sakini Valeh İsrafilov və Rusiya Federasiyası vətəndaşı, əvvəllər məhkum olunmuş Cahid Kərimov tərəfindən təşkil olunub. Orada iştirak edən üç qadının görüntüləri məhz C.Kərimov tərəfindən çəkilərək sosial şəbəkədə yayımlanıb.

Hazırda faktla bağlı müvafiq araşdırmalar davam etdirilir və nəticəsindən asılı olaraq məsələyə hüquqi qiymət veriləcək.

# Dövlət yenə sahibkarlara sahib çıxdı

## *Prezident İlham Əliyev bir daha sübut etdi ki, hər bir azərbaycanlının Prezidentidir*

***Bir neçə gündür "Diqlas" Ticarət Mərkəzində baş vermiş yanğın ölkə ictimaiyyətinin diqqət mərkəzindədir. Etiraf edək ki, bu, sıradan bir hadisə deyil. Mərkəzdə ticarətlə məşğul olan yüzlərlə iş adamının malları yanıb külə dönüb, onlar külli miqdarda ziyana düşüblər, işsiz və qazancsız qalıblar.***



**MEHRİBAN ABASQULİYEVA, YAP Sabunçu rayon təşkilatının sədri**

Lakin hər zaman olduğu kimi, bu dəfə də Prezident İlham Əliyev vətəndaşlarına arxa durdu, sahibkarları sahibsiz qoymadı. Bakının Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar Prezident İlham Əliyevin Sədrliyi ilə keçirilən müşavirədə çıxışı zamanı Azərbaycanda güclü sosial siyasətin aparıldığını və bu siyasətin davamlı olduğunu söylədi. Vurğuladı ki, dövlət sahibkarların yanındadır, yanğından zərər çəkmiş sahibkarlara operativ qaydada maliyyə dəstəyi göstəriləcək.

Həqiqətən də, dünyanın indiki vaxtında öz vətəndaşlarına bu səviyyədə dayaq olan, bu dərəcədə humanist yanaşan, bu qədər güzəşt edən ikinci bir dövlət tapmaq çətindir. Fikir verin, sel gəlir - dövlət oradadır, harada zəlzələ baş verir - dövlət operativ tədbirlər görür, harada yanğın olur - dövlət yenə də vətəndaşlarını tək qoymur. Bu, bir daha onu göstərir ki, Azərbaycan Prezidenti hər bir vətəndaşının və sahibkarların yanındadır.

### Xalqla birbaşa təmasda olan Prezident

Son 16 ildə daima xalqla birbaşa təmasda olan Prezident İlham Əliyev istər xarici siyasətlə bağlı fəaliyyətdə, istərsə də daxili idarəetmədə sadə vətəndaşlara söykənir: "Mən bütün azərbaycanlıların Prezidentiyəm" şüarını gerçəyə çevirir.

Çünki Azərbaycan Prezidenti İlham Əliyev on altı illik fəaliyyəti dövründə xalqa verdiyi vədləri, bütünlüklə yerinə yetirib və bu gün də bunun şahidiyik. Bu müddət ərzində, ölkəmizin bütün sahələrdə sürətli inkişafına nail olunub, insanların rifah halı daha da yaxşılaşıb. Azərbaycanın siyasi və iqtisadi imkanları genişləndirilib, ölkəmizin beynəlxalq arenadakı mövqeləri möhkəmləndirilib. Bu gün regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Dünyada etibarlı tərəfdaş kimi tanınan Azərbaycanla əməkdaşlıq etmək istəyən dövlətlərin sayı kifayət qədər çoxdur. Bu gün Azərbaycan artıq dünyada sayı məhdud olan kosmik ölkələr sırasındadır. Ordumuz dünyanın ən güclü 50 ordu sırasında yer alır. Ən əsas faktor isə Azərbaycan brendi - "ASAN xidmət" təcrübəsi bir sıra ölkələr tərəfindən öyrənilir və tətbiq edilir.

Bütün bunlar dövlətimizin başçısı İlham Əliyevin son 16 illik Prezidentlik fəaliyyətinin əsas qayəsində xalqa ləyaqətlə xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq, dövlətçiliyimizi hər vasitə ilə möhkəmləndirmək dayanır. Onu da qeyd edim ki, dövlət başçımızın bu addımı həm vətəndaşların yanında olmaqla yanaşı, həm onların problemlərini həll etmək, həm də, əslində, sahibkarlığa dəstək verməkdir. Bu isə, xalqiqtidar birliyinin ən gözəl, ən bariz nümunələrindən biridir.

**"Sahibkarlara bir daha demək istəyirəm ki, dövlət onların yanında olacaq"**

Prezident İlham Əliyev müşavirədə bildirib ki, dövlət sahibkarların yanındadır və yanğından zərər çəkmiş sahibkarlara operativ qaydada maliyyə dəstəyi göstəriləcək. Bu, bir daha Prezidentin insan amilinə verdiyi böyük önəmin bariz nümunəsidir. Dövlət başçısı onu da bildirib ki, Azərbaycan çox güclü sosial siyasət aparır: "Sosial təşəbbüslər nəticəsində, 3 milyondan çox insan bu proqramla əhatə olunur. Deyə bilərəm ki, dünyada belə bir təşəbbüsün bənzəri yoxdur. Təbii fəlakət - zəlzələ, daşqın vaxtı hər zaman vətəndaşın yanında ilk olan dövlətdir. Bu, bizim siyasətimizdir, biz bu siyasətə sadiqik və bunu bütün sahələrdə aparacağıq. Ona görə, baş vermiş yanğınla bağlı, əlbəttə ki, ilk növbədə, biz burada əziyyət çəkən, maddi ziyan dəyən sahibkarların vəziyyətini başa düşməliyik, onlara kömək göstərməliyik və göstərəcəyik".

Bir sözlə, dövlətin heç bir sosial-iqtisadi, maliyyə öhdəliyi olmadığı halda, yanğın nəticəsində, zərər çəkmiş sahibkarlara dəstək nümayiş etdirməsi bir daha Prezident İlham Əliyevin çətin anlarında sahibkarların yanında olduğunu göstərdiyini bir daha sübut etdi. Beləliklə, bütün bunlar, bir daha onu təsdiqləyir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətinin mərkəzində Azərbaycan vətəndaşı, onun sosial rifah halı və sosial müdafiəsi dayanır.

# 31 Mart Azərbaycanlıların Soyqırımına həsr olunmuş anım tədbiri keçirilib

Bakı Slavyan Universitetinin Tələbə-Gənclər Təşkilatı və Nəsimi rayon Gənclər və İdman İdarəsi ilə birgə 31 Mart Azərbaycanlıların Soyqırımına həsr olunmuş anım tədbiri keçirib. Tədbir iştirakçıları Hərbi Prokurorluqda olmuş, burada azərbaycanlıların soyqırımına həsr olunmuş şəkillərdən, tarixi sənədlərdən, cinayət aktlarında istifadə edilmiş silah və hərbi sursatdan, faciələrin baş verdiyi coğrafi məkanların xəritələrindən ibarət xüsusi bölmə ilə tanış olublar.





Tədbirdə çıxış edən BSU-nun tələbəsi Əsmər Bayramova Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı cinayətlətinin mahiyyəti və məqsədləri haqqında ətraflı məlumat verib. O, vurğulayıb ki, erməni işğalçılarının və onları dəstəkləyən qüvvələrin Azərbaycan xalqına qarşı düşmənçiliklərinin tarixi çox uzaqlara - 200 il əvvəlki dövrlərə gedib çıxır.

BSU-nun digər tələbəsi Nərmin Adil çıxışında tarixə ekskurs edərək, hələ Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti dövründə 31 mart azərbaycanlılara qarşı soyqırımı faktlarının tədqiqi məqsədilə Fövqəladə Təhqiqat Komissiyasının yaradıldığını və Cümhuriyyətin Xarici İşlər Nazirliyinin nəzdində xüsusi qurumun həmin cinayətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində çox böyük işlər gördüyünü nəzərə çatdırıb.

N.Adil yalnız Ümummilli Lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanla bu hadisəyə hüquqi-siyasi qiymət verildiyini və 31 martın "Azərbaycanlıların Soyqırımı Günü" kimi qeyd edilməyə başlanıldığını vurğulayıb.

Sənədlərlə tanış olan tələbələr də hadisələr barədə öz fikirlərini bölüşüblər.

**ZÜMRÜD BAYRAMOVA**

# Soydaşlarımız ermənilərə "bayraq" qaldırmağa imkan vermədilər

***Artıq bir neçə gün məlum idi ki, 31 Mart tarixində Barselona şəhərində bir qrup erməni təşkilatı vasitəsilə "Los heroes de la guerra de Artsakh" (Qarabağ müharibəsi qəhrəmanları) adlı qərəzli və təxribat xarakterli konsertin keçirilməsi nəzərdə tutulurdu. Bununla əlaqədar, İspaniyada yaşayan həmyerlilərimizi bir araya gəlib tədbir məkanının qarşısında etiraz aksiyası keçirərək erməni təxribatına qarşı haqlı mövqeyimizi bir daha nümayiş etdiriblər.***




Barselonada yaşayan həmyerlilərimizlə bərabər İspaniyanın digər vilayətlərindən gələn azərbaycanlılar da iştirak ediblər. Etiraz aksiyasında ispan dilində yazılmış "Qarabağ Azərbaycanın döyünən ürəyidir", "31 Mart - Azərbaycanlıların soyqırımı günüdür" pankartları nümayiş etdirilib.

"Tədbir keçirilən məkanın qarşısında say nisbətində ermənilərin dəfələrcə çox olmasına baxmayaraq aksiyada iştirak edən azərbaycanlılar heç nədən çəkinmədən sonadək etiraz aksiyasını davam etdiriblər. Belə önəmli gündə heç nəyə baxmayaraq bir araya gəlib, birlikdə daha güclü olduğumuzu nümayiş etdirən hər bir həmyerlimizə təşəkkür edirik", - aksiyada fəal iştirak edən "Valensiya Azərbaycanlıları" Cəmiyyəti sədri Mübariz İbrahim tədbirdə düşmənin planlarının puç olduğunu bildirib.

Cəmiyyət sədri bildirib ki, ermənilər özləri də aksiyanın keçirilməsindən şoka düşdülər: "Soydaşlarımız tədbirdə fəal iştirak edirdi. Valensiya ilə Barselona arasında məsafə 400 km-dən çox olar. Biz buna baxmayaraq aksiyada iştirak etdik və vətənimiz qarşısında az da olsa borcumuzu yerinə yetirdik. Erməni yanlarına müdəqqəs bayrağımızlı əlimizdə alaraq, öz etirazımızı bildirdik. Necə düşmənlə üz-üzə səngərdə əsgərlərimizdir, burada da bizik. Bundan sonra da erməni dasporunun yalanlarına qarşı mübarizəmizi aparacağıq".

Medina de Pomar şəhərində yaşayan Azərbaycan-İspaniya Mədəniyyət və Ticarət Assosisasiyası direktorlar şurasının yaşadığı bölgə üzrə direktoru, sosial şəbəkədə İspaniya Azərbaycanlıları Birliyinin yaradıcı admini Vahid İmanov iki şəhər arasında məsafənin 800 km-ə yaxın olduğunu qeyd edərək, ancaq buna baxmayaraq tədbirdə iştirakının özünün müdəqqəs borcu olduğunu söyləyib: "İspaniyada keçirilən tədbirlərdə fəal iştirak edirəm. İşlərimiz bir kənara qoyub,tədbirlərə gedirəm. Burada iştirak etməyə bilməzdim. Separatçıların bayrağının aksiyada qaldırılmasına imkan vermədik".

İspaniya-Azərbaycan Ticarət və Mədəniyyət Assosassiyasının (ACAE) prezidenti Fərid Mustafayev Fransadan gələn yoldaşları ilə etiraz aksiyasına dəstək verdiklərini söyləyib: "Ən əsası düşmənlərimiz birliyimizi gördülər.Bundan sonra da bir olacağıq".

Milli Azadlıq Hərəkatının fəallarından biri, hal-hazırda Fransada yaşayan Saleh Aqşin aksiyada iştirak edib: "Bir neçə polis maşını gəldi, ermənilər polislərə şikayət etdilər ki, azərbaycanlılar konsertimizə etiraz edirlər. Polislər isə gördülər ki, biz plakatlar və bayraqlarla dinc aksiya keçiririk. İspan dilini bilən dostlarımız polisləri başa saldılar ki, bu gün bizim soyqırım günümüzdür, onlar da qəsdən konsert edirlər".

# Vaqif Dərgahlı: Ermənistan əlaltılarını ortaya atmaqla onları çaldıqları mahnını oxumağa sövq edir

***Ermənistan ordusunda daim baş verən mənfi halların, o cümlədən hərbi qulluqçular arasında nizamnamədənkənar münasibətlərin geniş yayılması, qeyri-döyüş itkilərinin sayının durmadan artması, ordunun zəif təminatı və təchizatı, vəzifəli generaldan tutmuş əlahiddə bölmənin tağım komandirinədək bütün hərbi qulluqçularının rüşvətxorluğa bulaşması, xüsusilə də Ermənistanın baş naziri Nikol Paşinyanın da etiraf etdiyi kimi, ordunun kriminal qaydalarla idarəolunması faktlarını beynəlxalq ictimaiyyətdən və erməni əhalisindən gizlətmək və diqqəti yayındırmaq məqsədilə bu ölkənin hərbi rəhbərliyi Azərbaycan Ordusunun uğurlarına kölgə salmaq üçün dəridən-qabıqdan çıxır.***




Vaxtilə erməni ordusuna bel, kürək və digər ləvazimatların alınması üçün ondan-bundan maliyyə vəsaiti toplayan, indi isə bu məharətini ABŞ-dakı erməni diasporundan pul dilənməkdə peşəkarcasına nümayiş etdirən müdafiə naziri David Tonoyanın Azərbaycan Ordusuna qarşı çıxış etməkdən başqa heç bir əlacı qalmayıb.

Bu fikri Azərbaycan Respublikası Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı Azərbaycan Ordusunda guya mənfi halların mövcud olması ilə bağlı Ermənistan mətbuatında yayılan məlumatı AZƏRTAC-a şərh edərkən deyib.

V.Dərgahlı bildirib ki, Ermənistan tərəfi öz əlaltılarını ölkəmizdən xaricdə yaşayan bəzi üzdəniraq "hərbi ekspertlər"in qərəzli və həqiqətə uyğun olmayan çıxışlarına istinadən Azərbaycan əsgəri, Ordumuzda həyata keçirilən islahatlar, o cümlədən ali rütbəli hərbi qulluqçularımız barəsində qarayaxma kampaniyası aparmaqla onları ermənilərin çaldığı mahnını oxumağa sövq edir.

"Heç bir real fakta əsaslanmayan, ümumi sözlərlə ifadə olunan xəbərlər yayanların məqsədi güclü Ordumuza və onun vətənpərvər şəxsi heyətinə qarşı Azərbaycan cəmiyyətində inamsızlığın formalaşdırılmasına cəhd etməkdir. Biz belə xəbərləri qəti surətdə təkzib edir, onları qərəzli və düşmən təbliğatının tərkib hissəsi kimi dəyərləndiririk.

Məlumdur ki, xalq ilə ordu arasında qarşılıqlı etimadın gücləndirilməsi istiqamətində mütəmadi olaraq müxtəlif tədbirlər həyata keçirilir. Bu tədbirlərin əyani nümunəsi müdafiə nazirinin tapşırığına əsasən, Azərbaycan Ordusunun bütün hərbi hissə və bölmələrində keçirilən "Açıq qapı" günüdür. Yerli icra hakimiyyəti orqanları, ictimaiyyətin bütün təbəqələrinin nümayəndələri, əsgər valideynləri və yaxınları hərbi qulluqçular üçün yaradılan xidməti və sosial-məişət şəraiti ilə tanış olurlar. Bu görüşlərdə qonaqlara Ali Baş Komandanın diqqət və qayğısı nəticəsində Ordumuzun silahlanmasına daxil edilən ən müasir silah və hərbi texnika nümayiş etdirilir. Burada iştirak edən vətəndaşlar yaradılmış şəraitə görə hər zaman Ali Baş Komandana və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirirlər.

Bütün bunlar, heç şübhəsiz, düşmənlərimizi, o cümlədən bu işlərdə onlara yardımçı olan üzdəniraq "hərbi ekspertlər"i qıcıqlandırır və onlar əlacsızlıqdan belə qərəzli və iftira xarakterli məlumatlar yaymaqla nəyəsə nail olacaqlarına ümid edirlər. Lakin onların bu ümidləri hər zaman olduğu kimi, bu dəfə də boşa çıxacaq", - deyə Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri qeyd edib.

# "Üç otaq" müəmmasından yaranan sui-qəsd planı

*Nikol Paşinyana qarşı dövlət çevrilişi hazırlanır*

***"Ermənistanın baş naziri Nikol Paşinyan yeni problemlə toqquşub - "xalqın baş nazirinə" qarşı sui-qəsd təhlükələri yaranıb, ancaq müxalifət, ya da xarici oyunçular tərəfindən deyil, şəxsi komanda üzvlərindən". Bu barədə "Vestnik Kavkaza"nın analitik bölümündəki "Üç otaq sui-qəsdi"nin sirri: Paşinyanı öz adamları devirəcək?" başlıqlı məqaləsində yazılıb. "Bu barədə Paşinyanın yaxınlarda keçirdiyi və 4,5 saat davam edən mətbuat konfransında məlum olub" deyə analitik şərhdə qeyd edilir.***



SİTAT: "Paşinyan birbaşa bəyan edəndə ki, ona qarşı aparılan danışıqların hansı "üç otaq"da aparıldığını bilir, jurnalistlər belə qərara gəldilər ki, söhbət Koçaryan-Sarkisyan klanının təmsilçilərindən gedir, bundan əlavə, baş nazir zarafat edərək həmin otaqların beş olacağını da deyib, "üç" ədədinin isə, sadəcə, simvol olduğunu bildirib. Onda birinci otaq - Koçaryanın adamları, ikinci otaq Sarkisyanın, üçüncüsü isə, çox yəqin, Ermənistanın hazırkı prezidenti Armen Sarkisyanındır; hansı ki, o, burada "coker" rolunu oynamağa cəhd edir".

## David Tonoyan, Tiqran Avinyan, Artur Vanetsyan triosu - dövlət çevrilişi planı hazırdır

"Ancaq başqa mülahizə də var: Paşinyan öz tərəfdarlarını nəzərdə tuta bilər, hansı ki, o, adamlarına hakimiyyətdə cavabdehlik daşıyan postlar paylayıb, mətbuat konfransı isə, ona görə təşkil edilib ki, baş nazir burada zəif olmadığını göstərməyə və hakimiyyət daxilində sui-qəsdlərin baş verəcəyinə, hakimiyyətini laxlatmağa imkan yaradılmayacağını göstərməyə çalışıb" deyə yazan nəşr əlavə edib ki, bu zaman "üç otaq" Milli Təhlükəsizlik Xidmətinin rəhbərinin komandası Artur Vanetsyana, de-fakto baş nazir Tiqran Avinyanın və müdafiə naziri David Tonoyanın ətrafına aiddir. "Onların hər biri öz təsirlərini artırmağa cəhd edir ki, bu da Paşinyanı özündən çıxarır" deyə məqalədə qeyd olunur. SİTAT: "Özəlliklə, Tiqran Avinyan tipik "boz kardinal" oyununu oynayır - Paşinyandan azad olan şəxsi komandasını hazırlayır və müxalifətlə daha güclü ittifaq təşkil edir.

Artur Vanetsyan daha uzağa gedir: böyük siyasətə daxil olmaq üçün, o, parlamentin vitse-spikeri Alen Simonyanla ciddi iş aparır. Qəzetin mənbəsinin məlumatına görə, artıq dövlət çevrilişinin ilkin ssenarisi var: əgər Paşinyan devrilərsə, bu zaman Vanetsyan baş nazir, Simonyan isə MTX-nin rəhbəri olacaq".

"MTX-nin peşəkar imkanlarını nəzərə alsaq, inamla təsdiq etmək olar ki, o, bu planı böyük hesabla, tələsmədən və səs-küysüz realizə edəcək" deyə erməni nəşri yazıb.

## Nikol müstəqil qərarlar qəbul edə bilmir?

"Vestnik Kavkaza" "İrates"dəki yazıdan nəticə çıxararaq qeyd edir: "Nikol Paşinyan hakimiyyətdəki mərkəzi prosesləri özü idarə etməyə çalışır; belə ki, son zamanlar müstəqil qərarlar qəbul etmək üçün çətinliklər yaranıb - göstərici mətbuat konfransı və güc nümayişi də bunu ehtiva edir. Eyni zamana, istisna etmək olmaz ki, baş naziri antipaşinyan qruplaşmalarının durmadan artması narahat edir, ona görə də o, "otaqların" üçdən çox olmasına da işarə edib.

Sözsüz, bu gün növbəti dəyişikliklər hələ realizə ediləcək deyil, çünki ictimaiyyət əvvəlki kimi öz "inqilabçı liderinə" inanır. Lakin bir il sonra vətəndaşların həyatları ciddi şəkildə dəyişilməsə, Paşinyanın reytinqi düşəcək və onda sui-qəsdlərin həyata keçirilməsi və dövlət çevrilişlərinin baş verməsi üçün yol açıq olacaq".

***Rövşən NURƏDDİNOĞLU***

***P.S. Yeri gəlmişkən, Nikol Paşinyanın Azərbaycan Prezidenti İlham Əliyevlə Vyanadakı görüşündən sonra, Ermənistanın müdafiə naziri Tonoyanın Azərbaycana qarşı "Ermənistan silahlı qüvvələri yeni əraziləri zəbt etmək üçün hərəkətə keçəcək" kimi sərsəm bəyanatını da artıq çevriliş cəhdinin realizəyə başlaması anonsunu verir. Hər halda, Paşinyanın mövcud vəziyyəti, həqiqətən də, çətin və çıxılmazdır.***

# Eldəniz Səlimov: "Vyana görüşü Azərbaycan diplomatiyasının gücünü nümayiş etdirdi"



"Vyana görüşü Azərbaycan diplomatiyasının gücünü, Azərbaycan dövlətinin və ən əsası, ölkə Prezidentinin növbəti dəfə siyasi iradəsini və qətiyyətini nümayiş etdirdi". Bunu "Səs" qəzetinə açıqlamasında millət vəkili Eldəniz Səlimov deyib. Onun sözlərinə görə, bu görüş həm də illərdir erməni şovinistlərinin, şovinizm xəstəliyinə mübtəla olmuş erməni siyasətçilərinin, başabəla erməni liderlərinin davam etdirdikləri siyasətin yanlış olduğunu, fiaskoya uğradığını gözlər önündə canlandırmış oldu: "Artıq ermənilərə inam qalmayıb, Ermənistan rəhbərlərinə, özündən əvvəlki cinayətkar rejimlərin və onun cinayətkar başçılarının səhvlərindən, aqibətindən ibrət dərsi çıxarmayan Paşinyanın dedikləri sabun köpüyündən başqa bir şey deyil. Hətta onların açıq və gizli himayədarları belə onlara inanmır, etimad etmir, heç bir sözlərini və bəyanatlarını ciddiyə almırlar. Vyana görüşü, Azərbaycan dövlətinin və dövlət başçısının iradəsi və qətiyyətinin nəticə olaraq, sərgilənən mövqe, danışıqların davam etdirilməsinin qərara alınması və danışıqlar formatının dəyişdirilməsinin qeyri-mümkünlüyünün ifadə edilməsi, artıq hər şeyi açıqlığı ilə ortaya qoydu, Ermənistanın, onun siyasətbaz siyasi liderlərinin fiasko ilə üzləşdiyini, dalana dirəndiklərini hər kəsə göstərmiş oldu. Cənab Prezidentin də TASS-a müsahibəsində vurğuladığı kimi, "əsas odur ki, danışıqların formatı dəyişilməz qalıb. Danışıqlar uzun illər olduğu kimi, Ermənistan ilə Azərbaycan arasında aparılır. İkincisi, danışıqlar prosesinə yeni təkan verilib. Artıq seçim, qərar Ermənistanın, Paşinyandır. Növbəti yanlışlıqları, xətaları, təxribatçılıq əməlləri onlara baha başa gələr, aprel hadisələrinin daha ağırını və daha faciəlisini yaşaya bilərlər".

***GÜLYANƏ***

# Kəlbəcərin işğalından 26 il ötür

**26 il bundan öncə, erməni silahlı qüvvələri 1993-cü il martın 27-də başlanan genişmiqyaslı hücumdan sonra aprelin 2-də Azərbaycanın Kəlbəcər rayonunu işğal etdilər. İşğal nəticəsində 53 340 nəfər öz dədə-baba torpaqlarından qovulub, 511 dinc sakin öldürülüb, 321 adam əsir götürülüb və itkin düşüb, rayona 761 milyon ABŞ dolları məbləğində ziyan dəyib.**



Qeyd edək ki, Kəlbəcər rayonunun işğalı o vaxt üçün Qarabağ müharibəsində Azərbaycanın ən böyük hərbi-strateji məğlubiyyəti idi. Kəlbəcərin işğalından sonra 3205 saylı iclasda BMT Təhlükəsizlik Şurası 822 saylı Qətnamə qəbul edib. Qətnamədə bütün işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın digər işğal olunmuş rayonlarından dərhal çıxarılması tələb olunur. Lakin indiyədək həmin qətnamədən irəli gələn hər hansı öhdəlik yerinə yetirilməyib.

1930-cu il avqustun 8-də ümumi sahəsi 3054 kv.km olan Kəlbəcər inzibati rayon statusu alıb. Qərbdə Ermənistan, şimalda Daşkəsən, Göygöl, Goranboy, şimal-şərqdə Tərtər, şərqdə Ağdam, Xocalı, cənubda Laçın rayonları ilə həmsərhəddir. Rayonun 144 kəndi, 1 şəhəri və 1 şəhər tipli qəsəbəsi var. Ağdərə rayonunun 20-yə qədər kəndi də Kəlbəcər inzibati bölgəsinə daxildir. Kəlbəcər rayonu Bakıdan təxminən 450 km qərbdə, Bərdə-İstisu (Kəlbəcər) avtomobil yolunun kənarında, Tərtər çayı sahilində, sıldırım qayalıqlar üzərində yerləşir. İşğal nəticəsində Kəlbəcərin 60 min nəfər əhalisi respublikanın 56 rayonunun 770 yaşayış məntəqəsində müvəqqəti məskunlaşmağa məcbur oldu. Kəlbəcərin ermənilərə təslim edilməsi AXC-Müsavat cütlüyü hakimiyyətinin tarix və millət qarşısında ən ağır cinayətlərindən biridir. 1996-cı ilin aprelində Kəlbəcər ictimaiyyətinin nümayəndələri ilə görüşdə Ümummilli Liderimiz Heydər Əliyev qeyd etmişdi ki, Kəlbəcər öz coğrafi mövqeyinə görə, elə bir yerdir ki, oranı işğal etmək, sadəcə olaraq, mümkün deyildir: "Təsadüfi deyil ki, Ermənistanın işğalçı dəstələri Azərbaycana 1988-ci ildə hücum etmiş, Kəlbəcər 1993-cü ilin mart ayının sonunda işğal olunmuşdur. O vaxt Azərbaycanın bir çox bölgələri, o cümlədən, Dağlıq Qarabağ, o zaman Kəlbəcərlə qonşu rayon olan Laçın işğal olunmuşdu. Amma Kəlbəcər bir ada kimi qalmışdı. Bir tərəfdən, doğrudan da, coğrafi mövqeyinə görə, digər tərəfdən isə, kəlbəcərlilərin özlərinin qəhrəmanlıqlarına görə. Demək, onu saxlamaq və qorumaq mümkün idi. Ermənistanın işğalçı qüvvələrini Azərbaycanın zəbt olunmuş torpaqlarından, o cümlədən, Dağlıq Qarabağdan və Laçından başqa yerlərdən çıxarmaq üçün, şübhəsiz ki, Kəlbəcəri coğrafi nöqteyi-nəzərdən qoruyub-saxlamaq lazım idi. Bu, bir nömrəli vəzifə idi".

Beləliklə, işğal nəticəsində Kəlbəcərin 60 min nəfər əhalisi respublikanın 56 rayonunun 770 yaşayış məntəqəsində müvəqqəti məskunlaşmağa məcbur oldu. Amma artıq o çətin günlər arxada qalıb. Dağlıq Qarabağın və ətrafındakı rayonların işğaldan azad olunması istiqamətində mütəmadi addımlar atılır. Ölkə Prezidenti İlham Əliyev torpaqlarımızın işğaldan azad olunması istiqamətində qətiyyətli siyasət yürüdür. Bununla yanaşı, bu gün qaçqın və məcburi köçkünlərin sosial rifahının yaxşılaşdırılması, onların yaşayış səviyyəsinin normallaşdırılması istiqamətində də məqsədyönlü fəaliyyət nümayiş olunur. Artıq çadır şəhərcikləri ləğv olunub və yeni qəsəbələr salınır. Bütün kəlbəcərlilər Azərbaycan dövlətinin problemlərin öhdəsindən gələcəyinə, o cümlədən, yaxın zamanda torpaqlarımızın işğaldan azad olunacağına inanır və öz yurd-yuvalarına qovuşacaqları günü səbrsizliklə gözləyirlər.

Bəli, Cənab Prezident çıxışlarında dəfələrlə vurğulayıb ki, Azərbaycan öz prinsipial mövqeyindən geri çəkilməyəcək və ölkəmizin ərazi bütövlüyünün bərpası bizim üçün əsas məsələdir. Məlumdur ki, müasir dünyada Ermənistanın silahlı qüvvələri bütün beynəlxalq normaları pozaraq, Azərbaycan ərazisinin 20%-ni işğal altında saxlayır. Bu gün 1 milyondan artıq azərbaycanlı torpaqlarından didərgin salınaraq, qaçqın və məcburi köçkünə çevrilib. Ermənistanın işğalçılıq siyasəti nəticəsində, 30 mindən artıq Azərbaycan vətəndaşı qətlə yetirilib, çoxlu sayda insan əsir və girov götürülüb. BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq təşkilatlar Ermənistanın işğal faktını təsdiqləyiblər. Mövcud duruma son qoyulması və qaçqınların öz torpaqlarına qayıtmalarını tələb edən çoxsaylı qərar və qətnamə qəbul edilsə də, işğaçı dövlət buna əməl etmir. Ölkəmizin son illərdə dinamik inkişafı, silahlı qüvvələrin büdcəsinin artması və nəticə etibarilə, ordumuzun güclənməsi ilə müşayiət olunur. Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Milli Ordusu, Hərbi-Hava Qüvvələri və Hava Hücumundan Müdafiə sistemi, Hərbi-Dəniz Donanması və Quru Qoşunlarından ibarətdir. Peşəkarlıqla yanaşı, ordunun maddi-texniki bazası da möhkəmlənib. Bu istiqamətdə, son illər ərzində, böyük işlər görülüb. Azərbaycan iqtisadiyyatının yüksəlişi, bütün sahələrdə olduğu kimi, ölkənin hərbi qüdrətinin də artmasında müsbət təsirini göstərib. Son illərdə Azərbaycanda müasir və çox güclü Hərbi-Sənaye Kompleksi yaradılıb. Azərbaycan Silahlı Qüvvələri bu gün müasir texnika ilə təchiz edilib və bunun nəticəsi olaraq, Vətənin müdafiəsinə daim hazır olan yüksək nizam-intizama malik ordumuz var. "Bu gün beynəlxalq reytinqlərə görə, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Ordumuz üçün nə lazımdırsa, biz onu da edirik. Ordumuzun maddi-texniki bazası möhkəmlənir. Hərbi bazalar, şəhərciklər, hərbi hissələr yenidən qurulur və əsaslı təmir edilir. Bizim hərbi şəhərciklərimizin, bazalarımızın, hissələrimizin 80 faizi artıq beynəlxalq standartlara cavab verir" deyən Azərbaycan Prezidenti, yoxsul Ermənistandan fərqli olaraq, ölkəmizin öz hesabımıza yaşadığını, o cümlədən, hərbi gücümüzü öz hesabımıza artırdığımızı bildirib: "Ona görə Azərbaycan ictimaiyyəti və düşmən bilməlidir ki, Azərbaycan Ordusu bundan sonra da güclənəcək və istənilən tapşırığı yerinə yetirməyə hazırdır. Yaxın tarix bunu göstərmişdir".

Göründüyü kimi, müstəqil dövlətimizin sürətli və ardıcıl inkişafına təkan verən bütün amillər böyük uzaqgörənliklə hazırlanmış inkişaf strategiyasının uğurlu tətbiqinin nəticəsidir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğu siyasəti yaxın gələcəkdə üçrəngli bayrağımızın Qarabağda dalğalanacağından xəbər verir. Tarix sübut edib ki, peşəkar ordusu olan xalqın müstəqilliyi də daimi və əbədidir.

***ZÜMRÜD***

## Gürcüstan səfiri: "UNEC-in əməkdaşlıq istiqamətində böyük potensialı var"

***Gürcüstan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradze Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) olub. UNEC-in rektoru, professor Ədalət Muradovla görüşən diplomat dost və qonşu ölkələr olan Azərbaycanla Gürcüstan arasında münasibətlərin yüksələn xətt üzrə inkişaf etdiyini diqqətə çatdıraraq, hər iki ölkə arasında reallaşdırılan irimiqyaslı layihələrdən söz açıb. Azərbaycan universitetləri arasında ilk səfərini UNEC-ə etdiyini bildirən səfir, Gürcüstan ali təhsil müəssisələri ilə əməkdaşlıq perspektivlərindən danışıb. Diplomat UNEC-in bu istiqamətdə böyük potensialı olduğunu diqqətə çatdırıb.***



Rektor Ədalət Muradov səfirə Cənubi Qafqazın ən böyük iqtisadyönümlü universiteti olan UNEC-də iqtisadyönümlü ixtisaslarla yanaşı, texniki və texnoloji ixtisasların da tədris olunduğu barədə məlumat verən rektor, universitetin İngiltərə, Fransa, İsveçrə və Litvanın qabaqcıl ali təhsil müəssisələri ilə bakalavr və magistr pilləsi üzrə ikili diplom proqramlarından bəhs edib. UNEC-in Türkiyə və Rusiyanın ali təhsil müəssisələri ilə geniş əməkdaşlıq etdiyini bidirən Ə.Muradov, bu istiqamətdə Gürcüstanla əlaqələrin inkişaf etdirilməsində maraqlı olduğunu vurğulayıb.

Rektor UNEC-in Zaqatala filialından da söz açıb. Filialın Gürcüstana yaxın ərazidə fəaliyyət göstərdiyinə toxunan rektor, Zaqatala filialında gürcü dilində də tədrisin mümkünlüyünü də qeyd edib. UNEC-in Rusiya ərazisində lisenziya əsasında filialının fəaliyyət göstərdiyini deyən Ə.Muradov, Gürcüstan Respublikasında da filialın açılmasında maraqlı olduğunu vurğulayıb.

Görüşdə UNEC ilə Gürcüstanın ali təhsil müəssisələri arasında tələbə-müəllim mübadiləsi, birgə tədqiqatların aparılması, dərslik və kitabların çap etdirilməsi, konfrans və seminarların keçirilməsi istiqamətində müzakirələr aparılıb. Gürcüstanda təhsil alan tələbələrin UNEC-in ikili diplom proqramlarına qoşulmaq imkanları, universitetin Quba Tədris, İdman və İstirahət Kompleksində yay və qış məktəblərinin təşkili ətrafında fikir mübadiləsi aparılıb.

# Professor İbrahim Öztək: Azərbaycan xalqına qarşı törədilmiş 1918-ci il mart soyqırımı insanlıq əleyhinə cinayətdir

***Ermənistan silahlı birləşmələrinin 1918-ci ilin mart-aprel aylarında Azərbaycan xalqına qarşı törətdikləri soyqırımı aktı amansızlığına və kütləviliyinə görə bəşər tarixində insanlıq əleyhinə çox ağır bir cinayətdir.***



Bu fikri AZƏRTAC-a müsahibəsində türkiyəli professor İbrahim Öztək 31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı fikirlərini bölüşərkən deyib. 1918-ci il mart hadisələrini Azərbaycan xalqının demokratik dövlətinin yaranmasının qarşını almaq məqsədilə planlı şəkildə törədilən qəsd kimi dəyərləndirən professor deyib: "Ermənilər tərəfindən bir gündə təkcə Bakı şəhərində 12 min silahsız əhalinin qətlə yetirilməsi özündə bir neçə mənfur niyyəti əks etdirirdi. Başlıcası budur ki, Azərbaycanı dövlətçilikdən məhrum etmək istəyirdilər. Düşmən Azərbaycandakı ictimai-siyasi proseslərdən təlaş keçirirdi. İstəmirdilər ki, Azərbaycan müstəqilliyini elan etsin. Bu qırğınlarla xalqın gözünü qorxutmaq niyyətində idilər. Əlbəttə ki, buna nail ola bilsəydilər Ermənistanı monoetnik ölkəyə çevirdikləri kimi, sonrakı mərhələdə azərbaycanlıların öz doğma Azərbaycanında yaşamasına da imkan verməyəckdilər".

Ermənilərin Azərbaycana və Türkiyəyə qarşı əsassız düşmənçilik etməsinin təhlükəli və riskli olduğunu diqqətə çatdıran İbrahim Öztək fikirlərini belə tamamlayıb: "Saxta "böyük Ermənistan" ideyası bütün regiona, xalqların birgə və mehriban yaşayışına qarşı təhdiddir. Odur ki, həm bu iddianın mənfur məqsədini, həm tarixi prosesləri, eləcə də müasir dövrdə baş verən gerçəklikləri dünya ictimaiyyətinə düzgün çatdırmaq mühüm bir strategiya kimi qorunmalıdır. Bu məsələdə Azərbaycanın və Türkiyənin bərabər fəaliyyəti yeganə düzgün yoldur".

***Sabir Şahtaxtı***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Ankara***

# "REAL"-a qarşı müxalifətdaxili hücumlar hansı səbəbdən yaranıb?

*Vəziyyət şiddətlənməkdə davam edir*

***Müxalifətin yeniləşməsi və irəli gedə bilməsi üçün 90-ların siyasətçilərindən, eləcə də, düşüncə tərzlərindən birdəfəlik qurtulmağın vacib olduğunu deyən "REAL" partiyasının məclis üzvü Azər Qasımlı, məhz ittiham etdiyi köhnə təfəkkürlü müxalifətçilər tərəfindən hücumlara məruz qalmaqdadır.***




Belə ki, Qasımlının sözlərinə qarşı, ilk olaraq, ADP sədri Sərdar Cəlaloğlu çıxıb. Partiya sədrinin sözlərinə görə, 1990-cı ildə çıxan siyasətçilər "istiqlalçılardırlar" və onların siyasi arenadan silinmələri üçün "REAL" funksionerinin verdiyi təklif süni şəkildə ortaya atılıb. Məsələ ilə bağlı mətbuata açıqlamasında "unudurlar ki, sözdə "sən siyasətdən get, mən gəlim" deməklə iş olmur" açıqlaması verən Cəlaloğlu əlavə edib ki, əgər "REAL"-çılar özlərini güclü hesab edirlərsə, buyurub köhnələri sıradan çıxarsınlar: "Sən güclüsənsə, xalqı öz arxanca apara bilənsənsə, öz siyasi mübarizəni apar və təbii proses olaraq, gəl bizi sıradan çıxar. Sən özün ortaya ciddi mübarizə qoya, özünü qəbul etdirə bilmirsənsə, hansı məntiqlə 90-ların siyasətçilərinə "sən get, mən gəlim" deyirsən?!"

### Sərdar Cəlaloğlu "REAL"-çıları dələduz adlandırdı

"Sən demirsən ki, 1990-cı illərin siyasətçiləri köhnəlib? Yaxşı, sən təzəsən, irəli çıx, özünü göstər və mənə qalib gəl" deyə bildirən ADP sədri, hətta A.Qasımlıya meydan da oxuyub: "Amerikada təhsil almısan, Amerikanın sənə verdiyi ağılla mənə qalib gəl. Yoxsa, sən özün heç nə etmə, heç bir mübarizə aparma, sonra da çıx, mənə "sən get, biz gələk" tələbini ortaya qoy... Xeyir ola?! Niyə getməliyəm?! Mən meydanı, xalqı verməliyəm sənin kimi dil pəhləvanının, dələduzların əlinə ki, öz bildiyini edəsən?! Siyasət mübarizə meydanıdırsa, bu, nə deməkdir ki, sən illərin siyasətçilərinə deyirsən ki, mən səndən önə keçə bilmirəm, sən kənara çəkil. Sən ona görə qalib gələ, önə keçə bilmirsən ki, sən özün guya yeni siyasi qüvvə olsan da, sənin ideyaların köhnədir, bu, xalqa lazım deyil. Xalq ağı qaradan yaxşı seçə bilir. Baxıb görür ki, sənin dediyin sözlər, sənin yanaşman onun milli maraqlarına uyğun deyil. Odur ki, "1990-cı illərin siyasətçiləri getsin" kimi fikirlərin haması cəfəng sayıqlamalardan başqa şey deyil".

### AXP, Müsavat və AXCP də "REAL"-a qarşı hücuma start verib

Maraqlıdır ki, ADP sədrinin "REAL" səlahiyyətlisini ittiham etməsinə AXP sədri Pənah Hüseyn də dəstək göstərib və eyni zamanda, bildirib ki, bu məsələni ortaya atmağın zamanı deyil. Hətta qeyd edib ki, bu cür məsələlər gündəmdə aktual sayıla bilməz.

Digər ənənəvi müxalifət partiya sədrləri də "REAL"-a qarşı hücumlara başlayıblar. Xüsusilə, AXCP və Müsavat tərəfdarları sədrlərinin təlimatları ilə sosial şəbəkələrdə "REAL"-a qarşı söyüş kampaniyalarına start veriblər. Sadəcə, ideya irəli sürən "REAL"-çının iddiasına qarşı belə bir radikal mövqenin bildirilməsi, həm də belə düşünməyə zəmin yaradır ki, ənənəvi və radikal təmayüllü müxalifətçilər, həqiqətən də, köhnəldiklərinin fərqinə varmağa başlayıblar. Ancaq göründüyü kimi, heç vaxt reallığı dərk edə bilməyənlər, bu dəfə də öz köhnə şakərlərində qalmaqda davam edirlər.

**Rövşən RƏSULOV**

# Müxalifət partiyalarından növbəti istefalar gözlənilir

*"Müxalif başbilənləri boşboğazlar yığınağından başqa bir şey deyillər"*

***Müxalifətdaxili qarşıdurmalar getdikcə daha gərgin xarakter daşımaqdadır. Vəziyyətdən çıxmaq üçün hər zaman boğazdan yuxarı danışmağa adət edən müxalifətin dağıdıcı qanadı birgə tədbirlərin keçirilməsi barədə ideyalar irəli sürürlər. Ancaq mövcud faktlara istinadən, demək olar ki, Müsavat və AXCP rəhbərləri isə reallıqda bir-birinin maraqlarına zidd olan mövqe ortaya qoyurlar. Buna misal kimi AXCP və Müsavatın ayrı-ayrılıqda aksiyalar keçirmək barədə qərar vermələrini göstərmək olar.***

Halbuki az öncə, Əli Kərimli sosial şəbəkələr vasitəsi ilə müxalifət partiyalarına müraciət edərək, birləşməyi təklif etmişdir. Əməli işə gələndə isə, Ə.Kərimli ənənəsinə uyğun olaraq fərqli mövqe nümayiş etdirib. Məhz buna görə də, Müsavat yetkililəri sosial şəbəkələr vasitəsi ilə AXCP sədrini təhqir edən statuslar paylaşırlar. Söhbət etdiyimiz müsahiblərimiz intriqaların və qarşıdurmaların heç zaman müxalifətin birləşməsinə imkan vermədiyini və müxalifətin birliyinə ən böyük zərbəni Ə.Kərimli və A.Hacılının vurduqlarını bildirdilər.

### <u>"Həftə İçi" qəzetinin baş redaktoru Sevinc Seyidova:</u> "Heç bir zaman AXCP və Müsavat rəhbərliyi bir-birini qəbul etməyib"



- Ötən illər ərzində adları çəkilən qüvvələrin müxtəlif təşəbbüslər irəli sürdüklərinin şahidi olmuşuq. Hər dəfə seçkilər ərəfəsində istər Müsavat, istərsə də AXCP rəhbərləri birlik təşəbbüsləri ilə çıxış etsələr də, son məqamda bu təşəbbüslərin heç biri reallaşmayıb. Səbəb isə aydındır. "Müxalifətin əsas qüvvəsi mənəm" adına iddialar birlik ideyalarının, sadəcə, söz olduğunu ortaya qoyub. Heç bir zaman AXCP və Müsavat rəhbərliyi bir-birini qəbul etməyib. Özlərini təcrübəli siyasətçi adlandırsalar da, şəxsi ambisiyalar hər dəfə önə çıxıb. Bu səbəbdən, hər vasitə ilə bir-birlərinə qarşı mübarizə aparıblar. İndi də birlikdə aksiya keçirmək ideyasını ortaya atıblar. Lakin yenidən birlik çağırışları elə çağırış olaraq da qaldı. Bu, bir daha göstərir ki, Müsavat, AXCP və digər müxalif qüvvələr Azərbaycanın ictimai-siyasi həyatında heç bir rola malik deyillər. Sadəcə, görüntü, "mən də varam" iddiasının doğru olduğunu isbatlamağa çalışırlar.

### <u>TOHGMİB-nın sədri Emin Həsənli:</u> "Müxalifətin hay-küyü şivənlikdən başqa bir şey deyil"



- Demək olar ki, müxalifət düşərgəsini təmsil edən şəxslər zaman-zaman yeni qurumlar yaradıblar, birləşiblər və ayrılıblar. Hər dəfə də, müxalifət tərəfindən yaradılan blokların sonradan dağılmasına görə də, bir-birlərini günahkar çıxarıblar. Bu baxımdan, demək olar ki, müxalif başbilənləri boşboğazlar yığınağından başqa bir şey deyillər. Bu gün müxalifət təmsilçilərini dəstəkləyən yoxdur. Yalnız öz qohum-əqrəbaları və partiya daxilində olan 5-10 nəfər onların anormal mövqelərini müdafiə edirlər. Yəni müxalifətin xalq tərəfindən dəstəyi olmayıb və olmayacaqdır. Çünki xalq onlara inanmır və onları qəbul etmir. Belə olan halda da, müxalifətin hay-küyü şivənlikdən başqa bir şey deyil. Bu gün heç kəsə sirr deyil ki, müxalifət xarici qüvvələr tərəfindən dəstəklənir. Müxalifətin hansısa mini-aksiyalar keçirməsi, təxribat xarakterli açıqlamalar yayması bir növ xaricdəki havadarlarına özlərini reklam etmək məqsədi daşıyır. Bunu üçün də bir-birləri ilə yarışırlar. Demək olar ki, müxalifətin davası daim "ana müxalifət" olmaq uğrunda gedib. Hər zaman da, çalışıblar ki, biri digərindən üstün olsun. Bu iddialar da onların axırına çıxacaq.

**GÜLYANƏ**

# Radikal müxalifətin pul savaşı

*Qabağa düşüb mitinqi keçirmək istəyi Əli Kərimli-Arif Hacılı arasında növbəti savaşa səbəb olub*

***Bu gün müxalifət deyilən dağıdıcı düşərgə təmsilçiləri yenə də biabırçı mitinq keçirməkdən nə usanır, nə də ölüb yerə girir. Səbəb də pul savaşıdır. Məşhur bir fikirdə deyildiyi kimi, radikallar təşkil etdikləri mitinqlərə və aksiyalara bir sünnət toyuna toplaşan insan qədər tərəfdar toplaya bilmir, amma böyük iddialarla çıxış edirdilər.***

Eyni mənzərə bu gün də müşahidə olunmaqdadır. Məqsəd xaricdə Azərbaycan haqqında neqativ fon yaratmağa cəhd etmək, əvəzində isə xarici qüvvələrin tulapayı olan qəpik-quruşa nail olmaqdır. İddiaları da guya "Ölkədə demokratiya boğulur!" Sərbəst toplaşma azadlığı təmin olunmur" və sair.

"Milli Şura"nın aprelin 6-da, Müsavatın isə aprelin 7-də mitinq təyin etməsi qərarı Əli Kərimli-Arif Hacılı arasında qarşıdurmanı daha da qızışdırdı.



### Əli-Cəmil cütlyü düşərgənin bir nömrəli xəyanətkarıdır

Müsavat başqanı A.Hacılı Ə.Kərimli və qoca "professor"un, həqiqətən də, ən qatı satqın və xəyanətkar olduğunu bildirib: "Ə.Kərimlinin satqın və xəyanətkar olduğu həmişə bəlli olub. Ancaq bu qoca "professor" isə, əsl ələkçinin qılverənidir. Altdan-altdan satqınçılıq edir, əyri yol gedir. Bu satqınlar qışqırmaqdan başqa, bir işə yarayan deyillər. Həyasızcasına deyirlər ki, guya Müsavat, sadəcə, yürüş etmək istəyir, biz isə mitinq. Ə.Kərimli, yenə də həmişə olduğu kimi, bu dəfə də satqınçılıq statusunu bir daha təsdiqlədi".

Bu yerdə ataların bir gözəl deyimini demək yerinə düşər, kor-kora kor deməsə, bağrı çatlar. İstər AXCP olsun, istərsə də Müsavat bir faktı anlamır ki, Azərbaycan cəmiyyəti mənəvi dəyərlərini itirmiş insanların arxasınca getməyəcək. Özünü "Milli Şura"sı adlandıran quruma daxil olan bir sıra dağıdıcı müxalifət partiya və birliklərinin yanvarın 19-da keçirdikləri mitinq göstərdi ki, Azərbaycan cəmiyyəti belə mənəviyyatsız və əxlaqsızları çoxdan zibilliyə atıb. Bu rəzillər zaman-zaman ölkəmizdə sərbəst toplaşmaq hüququnun əngəllənməsindən danışıblar. Nəticə isə biabırçılıqla bitib. Belə olan halda, istər "Milli Şura"nın, istərsə də Müsavatın mitinq tribunasına çıxacaq isimlər kimi, həmin aksiyadakı tələblərin miqdarı da artıq heç kimə maraqlı deyil.

Bulanıq suda balıq tutmaq sevdasına düşmüş hər iki cəbhənin "başbilənləri"nin bir məqsədi var: beynəlxalq təşkilatlara, məlum çevrələrə donoslar, raportlar ötürməklə, ölkədə siyasi sabitliyi pozmaq və bu yolla öz havadarlarından külli miqdarda pul qoparmaq. "Nə qədər pis olsa, o qədər yaxşıdır" prinsipi ilə hərəkət etmək onların hər ikisinin ortaq marağındadır.

Göründüyü kimi, görünür, AXCP və Müsavatın birgə mitinq keçirmək iddiası hələ çox uzanacaq. Necə deyərlər, "iki qoçun başı bir qazanda qaynapaz".

**Rəfiqə HÜSEYNOVA**

# Ölüm cəzası insanın yaşamaq hüququna qarşı

**_Qədim dövrlərdən ölüm cəzasına münasibət birmənalı olmamışdır. Görkəmli hüquqşünas-alim, hüquq elmləri doktoru, professor İlham Rəhimov cəzasının əxlaqiliyi haqqında əsərində yazır: "Firon Erhamenin əmri ilə Nepatidən (indiki Efiopiyanın ərazisi) Omonun kahinlərini ölüm cəzası olaraq timsaha atdıqlarını, vikinq Raqnar Lodbroku diri-diri ilanlarla dolu olan çəlləyə basdırıldığını, İranda məhkumu tikə-tikə doğramazdan əvvəl, onu yararaq qarnının içindən altı-səkkiz metr uzunluğunda bağırsağının çıxarıldığını oxuyanda, qışqırmaq istəyirəm: "Mən ölüm cəzasının əleyhinəyəm! Bu, qeyri-əxlaqidir və vəhşilikdir!" İngiltərədə VIII Henrixin zamanında, qanuna əsasən, məhkumun bədəni üzərində kəsik yüksək olmalıdır ki, cəllad həmin yara vasitəsilə onun dilini qopara bilsin, I Fransiskin 1525-ci il fərmanının preambulasında kafirin boğazının necə kəsilməsi haqqında deyilirdi: "isti dəmir ilə yarmaq, dilini çıxarmaq və kəsmək" və bundan sonra asmaq._**

Bundan başqa, Yaponiyada, Çində və Misirdə XX əsrədək tonqalda yandırmanın mövcud olmağına adam inanmaq istəmir. Məsələn, Şeyx Mühəmməd ibn-Ömər əl Quri insanın məşələ ("şamquya") çevrilməsinin necə baş verdiyini təsvir etmişdir. Yanmış gildən hazırlanmış dərin olmayan qab götürüb, onun içini mazutlu və qətranlı lif ilə doldururdular. Məhkumun əllərini sinəsi səviyyəsində üfiqi vəziyyətdə uzun çubuğa bağlayırdılar. Cinayətkara da qətran mazut sürtərək yandırırdılar. Canlı məşəli şəhərin küçə və meydanlarında gəzdirirdilər. 2013-cü ildə Səudiyyə Ərəbistanında bir pedofil-qatilin boynu vurulandan sonra onu tonqalda yandırmışdılar".

Müəllif göstərir ki, ölüm cəzasının tətbiqi tarixindən ötən əsrlər ərzində bu cəzanın az dəyişikliklərə uğramadığına təəəyyülün yarada biləcəyi ən dəhşətli, eybəcər və amansız üsulların tanınmasına, onu bu istiqamətdə daimi axtarışa itələdiyinə dair çoxsaylı nümunələr gətirmək olar. İnsan özünün biliyinin, intellektinin bütün gücündən öldürmə sənətinin təkmilləşdirilməsi üçün istifadə etməyə səy etmişdir. M.Monteskye qeyd etmişdir: "İnsanın anadangəlmə qəddarlığı bütün tarix boyu onun üçün açılan "qanunla ölüm"dən geniş fəaliyyət meydanı olmamışdır".

Cəmiyyət qədimlərdə boynun vurulmasının sadə, kobud üsulu ilə razılaşmayaraq, ölüm cəzasının icrasının daha mahir və təkmil üsullarının yaradılmasına xeyli əmək və istedad sərf etmişdir və fikrimizcə, bəşəriyyət sivil və mədəni inkişaf yolu keçdikcə, bu üsullar daha qeyri-əxlaqi xarakteri ilə fərqlənmişlər. Böyük fransız inqilabı dövründə fransız həkimlər Kilyoten və həkim, humanist və alim Lyinin ixtira etdikləri kilyotini qeyd etmək kifayətdir. Məhz mexanikanın tərəqqisi bu öldürmə vasitəsinin yaranmasında həlledici rol oynamışdır. Sonra fizikanın nailiyyətləri elektrik stulunun, kimya elminin kəşfləri isə qaz kamerasının yaranmasını şərtləndirmişdir. Növbəti addım öldürmənin yeni üsulu olaraq, iynəvurmadan istifadə edilməsi olmuşdur. Bu, ən humanist vasitə sayılır. Ölüm cəzası tarix səhnəsindən çıxmayınca, bu istiqamətdə növbəti addımın hansı olacağını müəyyən etmək çətindir. Ölüm cəzası özünün icra formasına görə dövlətin tam orijinal yaradıcılığının nəticəsi olmamışdır, ibtidai mədəniyyətlərdə yaradılmış üsulların təkmilləşdirilməsi olmuşdur. Məsələn, vəhşi insan xətrinə dəymiş şəxsi rast gəldiyi ilk ağacdan asırdısa, dövlət bundan ötrü meydanlarda xüsusi qurğular - dar ağacları qurmuşdur. Təəccüblüdür ki, insanların gözü qarşısında, aşkar surətdə həyata keçirilən bu qeyri-əxlaqi və vəhşi edamlar digər insanları amansız və təkmilləşdirilmiş adamöldürmə əməllərini törətməkdən çəkindirməmişdir.

İ.Rəhimov göstərir ki, gözəllik və harmoniyanın estetik hissinə zidd olan, özündə iyrənc və rəzaləti səhnəni, keçmiş barbarlığın qalığını, insanlıq üzərində ləkəni əks etdirən, ona "eyib və ləkə" gətirən bu cəza tədbiri böyük təəssüflə qeyd edilməlidir ki, hələ də mövcuddur. Ölüm cəzasının hər kəsə aydın olan mahiyyəti insanın buna mübahisəsiz hüququ olan hüquq tətbiqetmə subyekti tərəfindən fiziki ləğvini və ya bioloji vəziyyətinin xitam olunmasını ifadə edir. Xristianlıq nöqteyi-nəzərindən ölüm yer üzünə Allah tərəfindən göndərilən ən son və ən dəhşətli pislikdir. Bu cəza hamımızda olan ən qiymətli dəyəri - həyatı məhv edir.

Ölüm cəzası dövlət tərəfindən heç bir xərc və xüsusi səy tələb etməyən ən ucuz və sadə cəzadır. Məhz buna görə əxlaqi hiss nöqteyi-nəzərindən, o, şübhəsiz, zərərli, ürəyi bulandıran və qeyri-əxlaqidir. Çünki bununla cinayət törətmiş şəxsin həyatının toxunulmaz olmadığını deyil, əksinə, ictimai mənafe naminə qurban verilmə təəssüratını yaradır. Konkret qatilin - canlı insanın olduğu hər cür adam öldürmədən fərqli olaraq, ölüm cəzasında canlı insan mənasında cinayətin subyektinin olmaması, yalnız mücərrəd qatilin - dövlətin olmasına görə də, o, qeyri-əxlaqidir.

Lakin əxlaqi hissdən başqa, real ictimai həyatda ölüm cəzasının ümumi mənafeyi amansız cinayətlərdən və pisliklərdən müdafiə vasitəsi olaraq, mövcudluğunun obyektiv zəruriliyi, faydalılığı və ədalətliliyinə inam və təsəvvürlərə əsaslanan sağlam düşüncə prinsipi hökmrandır. Bu cəzanın əleyhdarları nə desələr belə, onun yalnız bir üstün keyfiyyəti vardır: ölüm cəzası olduqca nümunəvidir, qeyri-adi dərəcədə vahiməlidir və azadlıqdan məhrumetmənin bütün növlərindən - ömürlük azadlıqdan məhrumetmədən ağırdır. Ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş şəxsin həyatı necə kədərli və pərişan olsa da, həyatın itirilməsi haqqında düşüncə ona ömürlük məhbusluqdan daha ağır gəlir.

Ona görə də, biz XXI əsrdə konkret faktlar olaraq, cinayətkar qadını azyaşlı uşaqlarının gözü qarşısında zorladıqda və onu amansızlıqla qətlə yetirdikdə, boğazını kəsdikdə, cinayətin izlərini itirməsi üçün uşaqları vannada boğduqda; bağ evini qarət edən cinayətkarlar ev ilə yanaşı, orada yaşayan bütün ailəni diri-diri yandırdıqda; cinayətkar azyaşlı qızları zorladıqda və sonra da onları öldürdükdə, belə bir sual veririk: ölüm cəzası, doğrudanmı, faydasızdır və zərərlidir, ədalətsizdir və deməli, qeyri-əxlaqidir? Nə etməli? Onlar ilə necə rəftar etməli? Kimin təqsiri üzündən Beslanda 2004-cü ilin 1 sentyabrında 334 insan, o cümlədən, 186 uşaq öldü? Bu cinayətkarların yaşamaq haqları vardırmı? İnsanlar tam ədalətli və sadə olan belə bir sual verirlər: məgər zorlama ilə birlikdə dəhşətli, əzabverici çoxsaylı qətllər törədən Çikatilo tipli şəxslər həyatdan məhrum edil-məyə layiq deyillərmi? Axı heç kim bunun ölüm cəzasının və ədalətin xeyrinə çox güclü arqument olmasına, deməli, onun tətbiqinin əxlaqiliyinə qarşı çıxış edə bilməz. Çünki insanın qisas almaq arzusu, emosional əsası olsa da, həmişə olmuş və insan mövcud olduqca da olacaqdır. Bəli, ölüm cəzası keçmiş barbarlığın qalığıdır. Lakin digər şəxsləri öldürmək və zorlamaq da keçmişin qalığıdır. Məgər biz əcdadlarımızdan - barbarlardan bu keyfiyyətləri miras götürməmişik?

İ.Rəhimov daha sonra yazır: "Məgər bu gün qətl və zorlamaların törədilmə üsulları əcdadlarımızın törətdiklərindən humanizmi və ya əxlaqiliyi ilə fərqlənmirmi? Təəssüf ki, bunun çoxsaylı qurbanlara gətirib çıxaran yeni, daha mahir, əzabverici, amansız metod və vasitələri meydana gəlmişdir. Biz onunla da razılaşaq ki, sivil cəmiyyətdə idealda ölüm cəzası kimi cəza tədbiri olmalı deyildir. Lakin belə bir cəmiyyətdə zorakılıq və qətllər də olmalı deyil. Halbuki indiki cəmiyyətdə bunlar, nəinki mövcuddur, hətta getgedə genişlənir, artır və sərtləşir. Bəşəriyyət özünün inkişafı prosesində həmişə edamı amansız qeyri-insani prosedurdan icrası ani olan və məhkümu artıq fiziki məhrumiyyətlərdən maksimum səviyyədə azad edən sırf klinik hadisəyə çevirməyə həmişə cəhd etmiş və indi də edir və bu, ölüm cəzasına münasibətdə insanın əxlaqi hisslərinə müvafiq təsir göstərməyə bilməz". Bəşəriyyətin qarşısında bu gün prinsipial şəkildə qoyulan "ölüm cəzası qalsın və ya qalmasın" sualı da, təbii ki, bu problemin cinayət-hüquqi tədqiqinin rolunu inkar etmədən, bir daha bu cəza növünün əxlaqi və etik tərəflərinin mübahisəsiz və həlledici əhəmiyyətini təsdiq edir. Həmişə yadda saxlamaq lazımdır ki, "ölüm cəzasının etik olaraq, qəbuledilməzliyinin dərk edilməsinə məntiqi mühakimələrdən daha çox əxlaqi hisslərə, mədəni bəşəriyyətin vicdanına apellyasiya etdirilməsi yolu ilə nail olunur." Qədim zamanlardan insanlar ölüm cəzasının əhəmiyyəti və əxlaqi mahiyyəti haqqında düşünmüşlər. Bu barədə çoxsaylı fəlsəfi, cinayət-hüquqi nəzəriyyə və ideyalar irəli sürülmüşdür. Bir qrup mütəfəkkir ölüm cəzasını digər cəzalar kimi əxlaqi, etik zərurət kimi, digərləri isə sosial zərurət kimi nəzərdən keçirmişlər. Bir şey aydındır: cinayət cəzası sahəsində ölüm cəzası kimi əxlaq ilə sıx bağlı olan ikinci problem çətin ki, olsun. Təəccüblüdür, əgər tarix bizə hansısa xalqdan ölüm cəzasının icrası formasından başqa, heç nə qoruyub-saxlamamışdırsa belə, biz onun əxlaqi və mədəni inkişaf səviyyəsini təyin etməyə qadir olacağıq.

"Əxlaqilik" və "ölüm cəzası" - ilk baxışdan adi və sadə sözlər, ümumyayılmış anlayışlar olsa da, onların tarixi, ümumdünya əhəmiyyəti vardır. Çünki bunlar hansısa bir xalq tərəfindən deyil və bir tarixi ictimai dövrdə yaradılmamışdır. Onlar bəşəriyyətin özü kimi qədimdir. Məhz buna görə də, ölüm cəzası və əxlaqiliyə bəşəriyyətin ümumdünya tarixinin təzahürü kimi baxmaq lazımdır. Bəşəriyyətin həyatı mürəkkəbləşdikcə və inkişaf etdikcə, əxlaq və ölüm cəzası anlayışları da inkişaf etmişdir, Cəmiyyətin inkişafının hər mərhələsinə cəzanın xalqın özünün əxlaqi vəziyyətinə uyğun olan xüsusi sistemi müvafiq olmuşdur.

Kifayət qədər tanınmış və bir çox nüfuzlu alimlər hesab etmişlər ki, ölüm cəzasının tam məhv edilməsi üçün zaman gələcək. Məsələn, N.S.Taqansev yazmışdır: "...Ölüm cəzasının cinayət məcəllələrindən yox olacağını və indi bizim üçün cinayətkarların təkərə bağlanılması və ya yandılmasının ədalətli və zəruriliyinin mübahisə edilməsi kimi, varislərimiz üçün onun məqsədəuyğunluğu haqqında mübahisənin aparılmasının qəribə olacağını söyləmək üçün peyğəmbər olmaq lazım deyil'".

Bu sözlər, yüz il bundan əvvəl söylənilsə də, ölüm cəzası dünyanın bir çox ölkələrində hələ də mövcuddur və tətbiq olunur. Lakin M.N.Qernetin yazdığı kimi, o da doğrudur ki, "özünün qorxulu gücü ilə hər il yüzlərlə insanın həyatını məhv etməkdə davam edən ölüm cəzası ildən-ilə zəifləyir, çünki əvvəllər rəqibləri və əleyhdarları olmadığı halda, indi özünü qoruyub-saxlamaq üçün gərgin mübarizə aparmağa məcburdur və onun üzünə ağır ittihamlar səsləndirilir." Bu mübarizədə həm də ən vacib olan odur ki, diskussiyada bütün iştirak edənlər mücərrəd humanist və ya daha pis, ölüm cəzasının əbədi və qətiyyətli tərəfdarı olmasınlar, hansı ki V.Y.Kvaşis onların "instinktiv hisslərə yaxın olanlar", əleyhdarları isə "ağla çağıran" kimi sıralayır ki, real həyatı nəzərə alsınlar. Bizim üçün bir şey aydındır: müxtəlif nöqteyi-nəzərlərin böyük əhəmiyyətini inkar etmədən hesab edirik ki, müasir dövrdə bu problem əxlaqi əsasa söykənməlidir. Dərk etmək lazımdır ki, XXI əsrdə ölüm cəzasının lazım olub olmaması sualına cavabın verilməsində sağlam düşüncə deyil, məhz onun əxlaqi tərəfi mübahisəsiz və həlledici əhəmiyyətə malikdir.

**VAHİD ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Təkcə xərçəng xəstəliyi təşviş yaratmır, bunun əksi də baş verir

Hər bir insan öz həyatının bu və digər dövründə streslə qarşılaşır. Bir çoxları stress halını hər gün, xüsusən də işdə və evdə yaşayırlar. Lakin stress və həyəcanlı vəziyyət - bunlar eyni hal deyildir. Təşviş hissi hər hansı, bəzən hətta izahedilməz və müəyyən edilməyən məsələ üzrə daimi və yüksək narahatlıq kimi xarakterizə olunur. Dünyada təxminən 264 milyon insan (bu, planet əhalisinin 4 faizinə bərabərdir) izahedilməz təşviş vəziyyətində yaşayır.

Təşviş vəziyyətinin orqanizmdə onkoloji xəstəliyin inkişafına şərait yarada bilməsi bir çoxlarını maraqlandıran məsələdir. Bu, mümkündürmü?

Təhlükəli diaqnozun qoyulmasının insanın şüurunda təşviş hissləri yarada biləcəyi birmənalıdır. Lakin bunun əksi mümkündürmü? Bəs daimi narahatlıq xərçəng xəstəliyini yarada bilərmi?

AZƏRTAC xəbər verir ki, bu günlərdə Macarıstan Elmlər Akademiyasında keçirilən konfrans bu məsələyə həsr edilib. Bu suala macarıstanlı alimlərin apardıqları tədqiqatlar "hə" cavabı verir. Eyni zamanda, hər şey o qədər də təzadlı deyil. 2013-cü ildə başlanan və Macarıstanın Ümumi Elmi Kitabxanasının (PLOS) jurnalında dərc edilən tədqiqatların nəticələri göstərib ki, "generalizə olunmuş təşviş pozuntusu" (GAD) diaqnozu qoyulan insanlar arasında ümumi xərçəng riski daha yüksəkdir. 2016-cı ildə Böyük Britaniyada yüz minlərlə qadın üzərində aparılan digər tədqiqatda təşviş pozuntusunun süd vəzisi xərçəngi riskini artırdığı göstərili

## Rubensin əsərinin itirilmiş eskizi 1,3 milyon avroya satıldı

Böyük flamand rəssamı Piter Paul Rubensin (1577-1640) itirilmiş eskizlərindən biri Fransada, "Mercier & CIE" hərrac evində 1,3 milyon avroya satılıb. Rəssam bu eskizlər əsasında şagirdləri ilə birlikdə Antverpendəki iyezuit kilsəsinin günbəzini bəzəyib. "France 3" telekanalının yaydığı məlumata görə, əsəri belçikalı kolleksiyaçı alıb. Eskizin ilkin hərrac qiyməti 200 min avro olub.

Hərrac evinin müdiri Patrik Deqine deyib: "Rubens 1620-ci ilin martında hər birinin ölçüsü 3x4 metr olan 39 tablo üçün sifariş alıb. Rəssam və onun 30 köməkçisi bu sifarişi yerinə yetirmək üçün bir çalışıb. Rubens şagirdlərinə kömək etmək üçün eskizlər çəkib. Tabloların sayı 39 olduğu halda, biz 33-nü aşkar etmişik. Bu, itirilmiş eskizlərin altıncısıdır".

P.Deqinenin sözlərinə görə, vaxtilə Rubensin möhtəşəm əsərinin fraqmenti olan bu eskiz XIX əsrin sonundan etibarən bir ailədə qorunub saxlanılırmış. Ailə qırmızı-ağ rəngli paltar geyinmiş xristian şəhid-qadın Antioxiyalı Marqarita ilə əjdahanın təsvir olunduğu bu eskizin həqiqi dəyərindən xəbərsiz olub. Onun çox qiymətli olması mirasın bölünməsi prosesində ekspertizaya təqdim ediləndə üzə çıxıb. Eskizin əvvəlki sahibi barədə məlumat yoxdur. Deyilənə görə, Rubensin özü eskizlərini çox dəyərli hesab etdiyi üçün onları satmaqdan imtina edib.

Qeyd edək ki, 39 tablodan ibarət əsərin özü zəmanəmizə gəlib çıxmayıb, çünki kilsənin günbəzini bəzəyən əsərlər 1718-ci ildə yanğın zamanı yanıb külə dönüb.


### ELAN

7 saylı Notariat Kontoru tərəfindən 3.9.2014-cü ildə Məmmədov Famil Həsən oğlu və Sevindik Ziyadxan oğlu tərəfindən Hüseynov İlqar Ağasadiq oğluna verilmiş AR-I 356720 saylı etibarnamə itdiyi üçün etibarsız sayılır.

***

Əliyev Əlipaşa Əliəşrəf oğluna həyətyanı torpaq sahəsinin ayrılmasıyla bağlı 96 saylı 20 avqust 1999-cu il tarixli Azərbaycan Respublikası Abşeron rayon icra hakimiyyəti üzrə sərəncamdan çıxarış itdiyi üçün etibarsız sayılır.

***

Əliyev Əlipaşa Əliəşrəf oğluna fərdi mənzil tikintisi üçün nəzərdə tutulmuş torpaq sahəsinin ayrılması ilə bağlı Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Kənd Təsərrüfatı Müəssisəsi tərəfindən verilmiş 21 may 2008-ci il 28 nömrəli əmr itdiyi üçün etibarsız sayılır.

***

7 saylı Notariat Kontoru tərəfindən 20.02.2005-ci ildə Vədətov Nadir Əlimədət oğlu və Əliyev Əlipaşa Əliəşrəf oğlu tərəfindən Vəliyev Vəli oğluna verilmiş Azərbaycan Respublikası 393842 saylı etibarnamə itdiyi üçün etibarsız sayılır.


## Gimnastımız beynəlxalq turnirdə bürünc medal qazanıb



Latviyanın paytaxtı Riqada bədii gimnastika üzrə beynəlxalq "Baltic Hoop" və "Riga Spring" turnirləri keçirilib. Azərbaycan millisinin üzvləri hər iki yarışda çıxış ediblər. Böyüklər arasında təmsilçimiz Veronika Qudis "Baltic Hoop" turnirində iki final mərhələsinə vəsiqə qazanıb. Yekun nəticədə gimnastımız həm gürzlər, həm də halqa ilə yarışlarda səkkizinci yerdə qərarlaşıb. Çoxnövçülük yarışında V.Qudis 63,050 xalla 10-cu, digər təmsilçimiz Darya Sorokina isə 13-cü (60,350) olublar.

Böyüklərin turniri ilə paralel yarışda gənc gimnastlar medallar uğrunda mübarizə aparıblar. Azərbaycan gimnastları "Riga Spring" yarışında dörd finalda çıxış ediblər. Nərminə Səmədova lent ilə çıxışına görə hakimlərdən 15,350 xal toplayaraq bürünc medala layiq görülüb. Digər 3 final mərhələsində isə ölkəmizi Arzu Cəlilova təmsil edib. Ən yaxşı nəticəsini ip ilə çıxışlarda göstərən təmsilçimiz turniri beşinci pillədə başa vurub.

## Məğlub olan Anand mətbuat konfransını yarımçıq tərk etdi




Azərbaycanın tanınmış qrossmeysteri, mərum Vüqar Həşimovun xatirəsinə həsr olunmuş "ShamkirChess 2019" superturnirinin ikinci turunda dünya çempionu Maqnus Karlsenə (Norveç) məğlub olan sabiq dünya çempionu Vişvanatan Anand (Hindistan) mətbuat konfransını yarımçıq tərk edib.

SİA-nın məlumatına görə, şahmatçı konfransa gələn kimi getməli olduğunu bildirərək, öncə ona sual verilməsini istəyib. V.Anand oyunu qısa şərh edərək, digər sualları cavablandırmadan, rəqibi M.Karlsenin fikirlərini bildirməsini gözləmədən əsəbi halda konfransı tərk edib. Qeyd edək ki, ikinci turdan sonra V.Anandın aktivində 0.5 xal var. M.Karlsen isə bu oyundan sonra xalını 1.5-ə yüksəldib.

## Robert Levandovski: "Belə bir karyera qurduğum üçün xoşbəxtəm"



Almaniyanın "Bavariya" klubunun hücumçusu Robert Levandovski transferi haqda qərarını verib. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, polşalı futbolçu adının bir çox klubla hallanmasına baxmayaraq, Münhen təmsilçisində qalmaq istədiyini deyib: "Müqaviləm 2021-ci ildə başa çatacaq. Ancaq burada daha uzun müddət qalmağı xəyal edirəm. Dünyanın ən yaxşı "9 nömrə"si olduğumu göstərmək üçün əlimdən gələni edirəm. Meydana çıxanda hər dəfə özümü sübut etmək məcburiyyətindəyəm. Qol vuranda və komanda qələbə qazananda hər şey möhtəşəm olur. Belə bir karyera qurduğum üçün xoşbəxtəm". Qeyd edək ki, 30 yaşlı hücumçu cari mövsüm 37 oyuna 31 qol vurub, 12 qol ötürməsi edib.

## "İnter" İvan Rakitiç və Arturo Vidalı transfer etmək istəyir



"İnter" "Barselona"nın iki futbolçusu ilə danışıqlara başlayıb. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, Milan klubu İvan Rakitiç və Arturo Vidalı heyətinə qatmaq istəyir. "İnter"in idman direktoru Pyero Ausilio "Barselona"nın direktoru Erik Abidalla Fransada görüşərək transfer danışıqları aparıb. "Barselona"nın İvan Rakitiç üçün 60 milyon avro tələb etdiyi bildirilir. "İnter"in xorvat futbolçu üçün etdiyi təklif açıqlanmasa da, Çili millisinin üzvü Arturo Vidal üçün 25 milyon avro təklif etdiyi deyilir.

## "Tottenhem" bu futbolçusunu satışa çıxardı



"Tottenhem" klubu, futbolçusu Kristian Erikseni satmağa hazırdır. Britaniya mətbuatının yazdığına görə, İngiltərə klubu 27 yaşlı yarımmüdafiəçiyə 150 milyon avro qiymət qoyub. Qeyd edək ki, Eriksenin "Tottenhem"lə müqaviləsi 2020-ci ilin iyununda başa çatır. Onunla "Real"ın maraqlandığı iddia olunur.


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov



Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62



Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.



Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500